EVDƏ QAL, SAĞLAM QAL!

**Azərbaycanda beynəlxalq standartlara cavab verən tibb mərkəzləri fəaliyyətdədir**



Bax 4

**Qarabağdakı saxta "seçkilər" dünya tərəfindən tanınmır**




Bax11



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 056 (6021) 8 aprel 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## Koronavirusla mübarizədə bütün ölkə vətəndaşları həmrəy olmalıdır



*Prezident İlham Əliyev: "Bizim əsas vəzifəmiz xalqımızı, dövlətimizi qorumaqdır"*

Bax 2

Bax 10

## "Nacional" qəzeti : Ermənilər Qarabağa gəlmədirlər

Albaniyanın "Nacional" qəzetində ermənilərin Dağlıq Qarabağa gəlmə olduqlarından bəhs edən "Tarixi abidələr: Marağa - 150" sərlövhəli məqalə dərc olunub. Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, Albaniya - Azərbaycan Dostluq, Elm və Mədəniyyət Cəmiyyətinin sədri, tarixçi-alim Entela Muçonun köməyi ilə işıq üzü görən məqalənin müəllifi "Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi"...




## "Prezident İlham Əliyevin əfv Sərəncamı dövlətimizin humanizm siyasətini əks etdirən mühüm faktlardan biridir"

*Azərbaycan bütün azadlıqların, o cümlədən insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunduğu, demokratik inkişaf yolunda əmin addımlarla irəliləyən ölkədir. Ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata...*



Bax 3

## Adil Əliyev: "Əfv Sərəncamı ölkə Prezidentinin növbəti humanist addımıdır"

*"Ölkə Prezidenti cənab İlham Əliyev Azərbaycan Konstitusiyasının 109-cu maddəsinin 22-ci bəndini rəhbər tutaraq məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında Sərəncam imzalayıb. Bu, dövlət başçısının növbəti humanist addımıdır". Bunu SİA-ya açıqlamasında Milli Məclisin sədr müavini Adil Əliyev deyib...*



Bax 5

Bax 5

## 190 manat birdəfəlik ödəməni necə əldə edə bilərsiz?

*"Əgər, işsiz kimi rəsmən qeydiyyatdan keçiblərsə müavinət ala bilərlər. İndidən sonra qeydiyyatdan keçsələr onlara iş təklifi edilməlidir. Əgər, iş təklifi olunmasa müavinət verilməlidir". Bu sözləri SİA-ya açıqlamasında...*






## "AS" nəşri: Ronaldo "Real"a qayıtmayacaq

"Real" rəhbərliyi "Yuventus"un futbolçusu Kriştiano Ronaldonu komandaya geri qaytarmaq fikrində deyil. Bu barədə "AS" nəşri məlumat yayıb. Bildirilib ki, 35 yaşlı hücumçunun qayıdışı Madrid klubunun transfer siyasətinə uyğun deyil. Çünki rəhbərlik...

Bax 16

**Ağdaban soyqırımından 28 il ötür**



Bax 12

**"Birdəfəlik ödəmə məhz işsiz hesab edilən şəxslərə veriləcək"**



Bax 6

**Bəlalərinə erməni çörəyi daha şirindir**



Bax 15

# Koronavirusla mübarizədə bütün ölkə vətəndaşları həmrəy olmalıdır

## *Prezident İlham Əliyev: "Bizim əsas vəzifəmiz xalqımızı, dövlətimizi qorumaqdır"*



### Azərbaycanda hər birində 200 çarpayı olan modul tipli 6 xəstəxana quraşdırılacaq

Prezident İlham Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, koronavirus pandemiyasına qarşı mübarizə sahəsində ölkədə həyata keçirilən səhiyyə tədbirləri çərçivəsində tibb müəssisələrinə və tibbi avadanlığa artan tələbatın qarşılanması və infeksiyaya yoluxmuş xəstələrin müalicəsinin səmərəli təşkili məqsədilə Sərəncam imzalayıb.

***Koronavirus pandemiyasının dünyada tüğyan etdiyi zamanda Azərdaycanda bununla bağlı təxirəsalınmaz tədbirlər həyata keçirir. Bildiyimiz kimi, Ümumdünya Səhiyyə Təşkilatı "COVID-19"-la bağlı milli və beynəlxalq səviyyədə göstərdiyi ciddi səylərə görə, Azərbaycan hökumətinə dərin minnətdarlığını bildirib. Ölkəmizdə əhalinin sağlamlığının qorunması Azərdaycan Prezidenti İlham Əliyevin ciddi nəzarəti altındadır. Yoluxma hallarının aşkarlanması, xəstəliyin yayılmasının qarşısının alınması və insanların həyatının xilas edilməsi və s. məqsədilə geniş işlər görülməkdədir.***

Aprelin 6-dan Azərbaycanda tibbi maska istehsalına başlanılması dövlətimizin əhalinin sağlamlığının qorunması məsələsinə nə dərəcədə diqqətlə və həssas yanaşmasını göstərir və sübut edir ki, Azərbaycanda dövlət tərəfindən bu istiqamətdə konkret və ardıcıl tədbirlər görülür. Sumqayıt Kimya Sənaye Parkında "Bakı Tekstil Fabriki" MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsinin açılışı koronavirus pandemiyası ilə əlaqədar tələbatın kəskin artması səbəbindən zəruri olmuşdu. Əhalinin sağlamlığının təmin olunması məsələsinə xüsusi diqqətlə yanaşan Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, qısa müddətdə müəssisə fəaliyyətə başladı. Müəssisədə İSO beynəlxalq standartlarına uyğun xammaldan istifadə olunmaqla birinci mərhələdə hər gün 120 min tibbi maska istehsal edilir. Maskalar qablaşdırıldıqdan sonra xüsusi avadanlıqla əlavə olaraq sterilləşdirilir. Yaxın günlərdə daha bir istehsal xətti qurulacaq və ikinci mərhələdə istehsal həcmi 2 dəfə artırılaraq gündəlik istehsal 200-250 min tibbi maskaya çatdırılacaq.

### "AZƏRBAYCANDA İSTEHSAL OLUNAN TİBBİ MASKALAR VƏ DEZİNFEKSİYA VASİTƏLƏRİ İNSANLARIMIZI QORUYACAQ"

Sumqayıt Kimya Sənaye Parkında "Bakı Tekstil Fabriki" MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsinin açılışında iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müəssisə ilə tanışlıqdan sonra Azərbaycan xalqına müraciətətində bildirdiyi kimi, bu müəssisənin açılışı xüsusi əhəmiyyətə daşıyır: "Çünki bu gün Azərbaycanda istehsal olunan tibbi maskalar və dezinfeksiya vasitələri insanlarımızı qoruyacaq. Bizim də əsas məqsədimiz ondan ibarətdir ki, insanlar bu xəstəliyə yoluxmasın, insanların sağlamlığı təmin edilsin və buna nail olmaq üçün bütün tədbirlər görülür". Əlbəttə ki, Azərbaycan dövləti koronavirusun ölkədə yayılmasının qarşısının alınması, vətəndaşların sağlamlığının qorunması, pandemiyanın fəsadlarının minimuma endirilməsi üçün əlindən gələni edir. "Bu gün ölkəmizdə tibbi maska istehsalı başlayır", - deyən Prezident dünyanın bir çox ölkələrində, eləcə də Azərbaycanda tibbi maska çatışmazlığı olduğunu və bu sahədə daim idxaldan asılı olduğumuzu bildirib: "Amma indiki şəraiti nəzərə alaraq qısa müddətdə, cəmi iki həftə ərzində yerli istehsal təşkil edildi. Burada sahibkarların böyük rolu vardır, eyni zamanda, Azərbaycan dövləti də öz maliyyə dəstəyini göstərmişdir. Beləliklə, qısa müddət ərzində yeni müasir istehsalat sahəsi yaradılmışdır və bu, bizə imkan verəcək ki, özümüzü tibbi maskalarla böyük dərəcədə təmin edək". Əksər ölkələrin maska qıtlığından əziyyət çəkdiyi bir vaxtda qısa zamanda yaradılan tibbi maska istehsalı müəssisəsinin açılışı olduqca təqdirələyiqdir.

### "ƏGƏR SÜNİ QİYMƏT ARTIMI OLARSA, BU İŞDƏ ƏLİ OLAN ŞƏXSLƏR CİDDİ CƏZALANDIRILACAQ"

Koronavirusa qarşı mübarizədə vacib amil vətəndaşların məsuliyyətli olmaları, karantin qaydalarına ciddi əməl etmələridir. Yoluxma sayının qarşısını alınmasında vətəndaşların məsuliyyətliliyi də önəmli faktordur. "Mübarizəni daha da səmərəli şəkildə aparmaq üçün dəfələrlə qeyd olunub ki, vətəndaşlar daha da məsuliyyətli olmalıdırlar və şəxsi gigiyenasına fikir verməlidirlər. Ancaq bunu təmin etmək üçün vasitələr olmalıdır və bu gün bu vasitələr artıq bazara təqdim edilir - tibbi maskalar və dezinfeksiya vasitələri" - deyə bildirən Cənab Prezident onu da diqqətə çatdırıb ki, apteklərdə və digər ticarət yerlərində süni qiymət artımına qətiyyən yol vermək olmaz və müvafiq dövlət qurumları çox ciddi nəzarət mexanizmi tətbiq etməlidirlər: "Əgər süni qiymət artımı olarsa, bu işdə əli olan şəxslər ciddi cəzalandırılacaq. Çünki indiki pandemiya şəraitində belə addımlar xəyanət kimi qəbul ediləcək".

Digər dünya dövlətləri ilə müqayisədə qabaqlayıcı tədbirlərin zamanında görülməsi nəticəsində Azərbaycanda koronavirus geniş yayılmayıb. Hər bir vətəndaş da dövlət tərəfindən görülən tədbirlərə dəstək olmalıdır, hər kəs üzərinə düşən məsuliyyəti dərk etməlidir. "Azərbaycanda qabaqlayıcı tədbirlərin görülməsi və vəziyyətə uyğun şəkildə bu addımların atılması bir məqsədi güdürdü ki, biz insanların həyatını, sağlamlığını qoruyaq və bu xəstəliyin Azərbaycanda geniş vüsət almasına imkan verməyək" - deyə müraciətində bildirən dövlət başçısı bu günə qədər görülmüş bütün tədbirlərin öz səmərəsini verdiyin qeyd edib: "Mən dəfələrlə bildirmişəm ki, biz həm milli birlik, həm həmrəylik nümayiş etdirmişik və məsuliyyət də nümayiş etdirməliyik. Amma indiki şəraitdə aprelin 5-dən sonra qüvvəyə minmiş qaydaları nəzərə alaraq vətəndaşlar nizam-intizam nümayiş etdirməlidirlər. Çünki bu qaydaları pozanlara qarşı ciddi tədbirlər nəzərdə tutulur və bu tədbirlər artıq təsbit edilib. Əminəm ki, vətəndaşlar bu qaydalara tam əməl edəcəklər və beləliklə, xəstəlik geniş vüsət almayacaq, biz bu vəziyyətdən az itkilərlə çıxa biləcəyik".

### "AZƏRBAYCAN DÖVLƏTİ BU CİDDİ VƏZİYYƏTLƏ ÜZLƏŞƏRƏK YENƏ DƏ ÖZ GÜCÜNÜ GÖSTƏRDİ"

Ona görə də vətəndaşlarımız maksimum məsuliyyətli olmalı və dövlət tərəfindən həyata keçirilən tədbirlərə hərtərəfli dəstək göstərməlidirlər. Güc birlikdədir, həmrəy olaraq qorxulu düşmənə - koronavirus pandemiyasına qalib gələ bilərik. Epidemiya ilə mübarizə milli təhlükəsizlik, milli həmrəylik məsələsidir. Bu mübarizədə bütün ölkə vətəndaşları həmrəy olmalı, bəlaya birlikdə qalib gəlməliyik. "Bir sözlə, Azərbaycan dövləti bu ciddi vəziyyətlə üzləşərək yenə də öz gücünü göstərdi. Onu göstərdi ki, bizim əsas vəzifəmiz xalqımızı, dövlətimizi qorumaqdır. Buna nail olmaq üçün istənilən addımların atılması mümkündür və biz bunu edirik" - deyə bildirən dövlət başçısı insanları məsuliyyətli olmağa, özlərini, yaxınlarını, ailə üzvlərini qoruyan ki, biz bu ağır vəziyyətdən az itkilərlə çıxa bilək! Biz birlikdə güclüyük!"

**_Nəzakət ƏLƏDDİNQIZI_**

# “Prezident İlham Əliyevin əfv Sərəncamı dövlətimizin humanizm siyasətini əks etdirən mühüm faktlardan biridir”



***Azərbaycan bütün azadlıqların, o cümlədən insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunduğu, demokratik inkişaf yolunda əmin addımlarla irəliləyən ölkədir. Ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin mərkəzində vətəndaşların rifahı və mənafeyi dayanır, eyni zamanda, bu siyasət milli maraqlara əsaslanır, sosial ədalət və humanizm prinsiplərini özündə ehtiva edir.***

AZƏRTAC xəbər verir ki, bu fikirləri Yeni Azərbaycan Partiyasının (YAP) İcra katibinin müavini, Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov deyib.

Onun sözlərinə görə, respublikamızda vaxtaşırı olaraq azadlıqdan məhrumetmə və azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş şəxslərin əfv edilməsi ilə bağlı dövlətimizin başçısı tərəfindən əfv sərəncamlarının imzalanması, eləcə də amnistiya aktlarının qəbul olunması mühüm əhəmiyyət kəsb edir: “Bu, dövlətin humanizm siyasətini, eləcə də öz vətəndaşlarına humanist münasibətini əks etdirən mühüm faktlardan biridir. Bu müsbət ənənənin əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulub. Ulu öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə gəldikdən sonra insan hüquqlarının təmin olunması istiqamətində mühüm addımlar atılıb, ölüm hökmünə moratorium qoyulub. O dövrdən etibarən Azərbaycanda heç kimə ölüm hökmü tətbiq olunmayıb və sonradan bu cəza növü ləğv edilib. Bununla yanaşı, Ümummilli Liderin ölkəmizə rəhbərliyi dövründə çoxsaylı əfv sərəncamları imzalanıb, amnistiya aktları qəbul edilib”.

Siyavuş Novruzov Azərbaycanın müstəqilliyini bərpa etdiyi 1991-ci il 18 oktyabrdan ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəldiyi dövrə qədər ölkəmizdə amnistiya və ya əfv haqqında hər hansı bir qərar və sərəncamın olmadığını xatırladaraq deyib: “Müstəqil respublikamızda 1996-cı ildən başlayaraq əfv sərəncamları imzalanıb, amnistiya haqqında qərarlar qəbul olunub”.

O qeyd edib ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ötən müddət ərzində Prezident İlham Əliyevin imzaladığı əfv sərəncamları və fərmanlarının icrası nəticəsində minlərlə məhkum azadlığa qovuşub və ya cəzaları qanunvericiliyə uyğun olaraq azaldılıb. Bu, dövlətimizin başçısının öz siyasətində daim humanizm prinsipini rəhbər tutduğunu göstərən mühüm faktlardandır. Sonuncu Amnistiya Aktı isə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilib, 10 mindən çox insana şamil olunub. Bütövlükdə, dövlətimizin başçısının imzaladığı qanunvericilik aktlarına əsasən, indiyə kimi 4871 şəxs əfv edilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə qəbul edilmiş amnistiya aktları 40412 şəxsi əhatə edib, onlardan 8580 nəfər azadlıqdan məhrumetmə cəzasından azad olunub.

Siyavuş Novruzov Prezidenti İlham Əliyevin “Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında” 2020-ci il 6 aprel tarixli Sərəncamına əsasən, 176 məhkumun, o cümlədən 165 kişi və 11 qadın cəzanın çəkilməmiş hissəsindən azad edilməsinin mühüm əhəmiyyətə malik olduğunu deyib: “Sərəncam yeni növ koronavirus infeksiyasının yayılması ilə əlaqədar yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyacı olan, yaşı 65-dən yuxarı bir sıra məhkumlara şamil olunub. Əfv məsələsinə baxılarkən məhkumların və onların ailə üzvlərinin müraciətləri, məhkumların səhhəti, törətdikləri cinayətlər, cəza çəkdikləri müddətdə davranışları və digər məsələlər nəzərə alınıb. Sərəncamda əfv edilən şəxslərin bu humanist aktdan düzgün nəticə çıxaracağına, Azərbaycan dövlətinin qanunlarına gələcəkdə dönmədən əməl edəcəklərinə əminlik ifadə olunub. Əlbəttə, əfv olunanlar dövlətin onlara inam və etibarını daim hiss edirlər, bu isə onlara layiqli vətəndaş olmaq stimulu verir. Bütövlükdə, Azərbaycan ictimaiyyətinin nümayəndələri humanizm nümunəsi olan və böyük sosial əhəmiyyətə malik bu addımları yüksək dəyərləndirirlər. Şübhəsiz ki, ölkəmizdə mütəmadi olaraq əfv sərəncamlarının imzalanması, amnistiya aktlarının qəbul olunması dövlətin öz vətəndaşlarına verdiyi dəyərin bariz nümunəsidir”.

# Azərbaycan Prezidentindən növbəti humanist addım



“Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev növbəti dəfə humanist addım ataraq dünyada koronavirus (COVİD-19) infeksiyasının yayılması ilə əlaqədar yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyacı olan yaşı 65-dən yuxarı olan məhkumların ailə üzvlərinin Azərbaycan Respublikasının Prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə baxaraq məhkumların sağlamlıq vəziyyətini, cəza çəkmələri müddətində davranışlarını nəzərə alaraq və humanizm prinsiplərinə əsaslanaraq 6 aprel 2020-ci il tarixdə “Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında” Sərəncam imzalamışdır. Sərəncama əsasən 176 nəfər məhkum o cümlədən 165 kişi və 11 qadın cəzalarının çəkilməmiş hissəsindən azad ediliblər”. Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Rauf Əliyev deyib.

R.Əliyev bildirib ki, Prezidentin bu sərəncamı bir daha göstərdi ki, Azərbaycanda həyata keçirilən dövlət siyasəti daima humanizm prinsiplərinə əsaslanır: “Yaşadığımız bu çətin günlərdə cənab Prezidentin bu sərəncamı çox sayda ailələrə sevinc bəxş etdi. Bu günə kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul edilmiş aministiya aktları nəticəsində 40 mindən çox azərbaycan vətəndaşı əfv edilib. Bu sərəncam və koronavirus(COVİD-19) infeksiyasına qarşı aparılan mübarizə tədbirləri bir daha göstərir ki, Azərbaycanda həyata keçirilən dövlət siyasətinin mərkəzində azərbaycan vətəndaşı, onun sağlamlığı və sosial-rifah halının yüksəkdə olmsı durur”.

# Ombudsman: Bu addım Prezident İlham Əliyevin insan hüquqlarının müdafiəsinə yönəlmiş siyasətinin daha bir nümunəsidir



Prezident İlham Əliyevin aprelin 6-da “Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında” Sərəncam imzalaması dövlət başçısının insan hüquqlarının müdafiəsinə yönəlmiş siyasətinin daha bir bariz nümunəsidir. AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə müsahibəsində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva deyib.

Qeyd edək ki, ombudsman əfv Sərəncamının icrası ilə əlaqədar Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 4 və 10 saylı cəzaçəkmə müəssisələrində olub. O, dövlət başçısının bu addımının əfv olunan şəxslərə, onların ailələrinə, yaxınlarına böyük sevinc bəxş etdiyini, ölkədə həyata keçirilən islahatların, davamlı əfv sərəncamlarının bütün dünya ictimaiyyəti tərəfindən müsbət qarşılandığını bildirib. Müvəkkil vurğulayıb ki, ümummilli lider Heydər Əliyev hər zaman çoxşaxəli fəaliyyətində humanizm siyasətinə, insan hüquqlarının təmininə önəm verib və bu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın da bu sahədə geniş fəaliyyəti xüsusi qeyd edilməlidir.

Müvəkkil müstəqillik dövründə Azərbaycanda dövlətimizin humanist siyasəti nəticəsində qısa müddət ərzində 66 əfv sərəncamının imzalandığını, 11 amnistiya aktının qəbul olunduğunu, nəticədə isə minlərlə insanın azadlığa buraxılaraq ailələrinə qovuşduğunu söyləyib.

# Azərbaycanda yeni koronavirusa daha 76 yoluxma faktı qeydə alınıb, bir nəfər həyatını itirib



Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına daha 76 yoluxma faktı qeydə alınıb, bir nəfər həyatını itirib. Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahından AZƏRTAC-a bildirilib ki, koronavirus (COVID-19) üçün götürülən analiz nümunələri müsbət çıxmış 1953-cü il təvəllüdlü, şəkərli diabet xəstəsi olan vətəndaşın səhhətinin stabilləşdirilməsi ilə bağlı aparılan reanimasiya tədbirləri nəticə verməyib. Onun ailə üzvləri və ünsiyyətdə olduğu digər şəxslər müəyyən edilir və karantinə götürülür.

Hazırkı dövrədək ölkəmizdə 717 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 44 nəfəri müalicə olunaraq sağalıb, 8 nəfər həyatını itirib, 665 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 23 nəfərin vəziyyəti ağır, 31 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir. Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 53 300 test aparılıb.

# Bəhruz Quliyev: “Əfv sərəncamı həm də həmrəyliyin nümunəsidir”

***“Prezident İlham Əliyev tərəfindən müəyyən edilən siyasətin tərkib hissəsi daim insan amilini prioritet istiqamət olaraq şərtləndirir. Bu baxımdan, humanizm və qayğıkeşlik prinsipinə söykənən əfv sərəncamları sözügedən faktoru kifayət qədər tamamlayır”. Sözügedən fikirləri Olaylar.az-a “Səs” qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev dövlət başçısının yaşı 65 və daha çox olan məhkumların həbsdən azad edilmələri ilə bağlı imzaladığı Sərəncamın mahiyyətini şərh edərkən deyib.***



Onun sözlərinə görə, növbəti Sərəncamın daha bir mahiyyəti budur ki, dünyanı bürüyən koronavirus infeksiyası xüsusilə yaşlı insanları daha tez yoluxdurur və onların sağlamlıqlarını təhlükə altında qoyur: “Hər bir məqamı incəliyinə qədər düşünən Prezident İlham Əliyev bu məsələdə də öz tükənməz qayğıkeşliyini, diqqətini göstərdi və bu yaş kateqoriyasına uyğun yaşlı məhbusların azad olunmaları, sağlamlıqlarının mühafizəsi üçün himanist addımını atdı, 176 məhbusu öz ailəsinə qovuşdurdu”.

Siyasi ekspert əlavə edib ki, azadlığa buraxılan məhbusların cəzalarına və cəza müddətlərinə baxmayaraq, belə bir mötəbər qərarın verilməsi humanizm prinsipi ilə yanaşı, həm də sosial qayğı siyasətinin növbəti təzahürüdür: “Burada yalnız azadlığa çıxan insanların qayğılarına diqqət göstərilməyib, eyni zamanda, onların ailələrinin narahatlıqlarına, əndişələrinə də son qoyulub. Belə bir sınaq dövründə bilavasitə azərbaycançılıq ruhundakı böyük həmrəyliyə imza atılıb. Yəni imzalanan əfv sərəncamı həm də həmrəyliyin nümunəsi və etalonudur. Çünki burada məhbusların ailələri,onların qayğıları barəsində də düşünülüb”.

Bəhruz Quliyev sonda vurğulayıb ki, məhz bu kimi örnək addımlar, həmrəylik nümunələri, eləcə də sosial qayğıya söykənən humanizm siyasəti xalqımızın bu sınaqdan da qalibiyyət ruhunda çıxacağına tükənməz inam və zəmin yaradır.

# Azərbaycanda beynəlxalq standartlara cavab verən tibb mərkəzləri fəaliyyətdədir

## Prezident İlham Əliyev: "Görülən bütün işlər, qəbul edilmiş qərarlar bir məqsədi güdür ki, biz bu ağır sınaqdan az itkilərlə çıxaq"

***Son illər Azərbaycanda bütün sahələr dinamik inkişaf edir. Sosial sahədə ardıcıl şəkildə həyata keçirilən layihələr də dövlətimizin əhalinin maddi rifah halının yaxşılaşdırılması və onların sosial qayğılarla əhatə olunmalarına istiqamətlənib. Səhiyyə sektorunun inkişafı ilə bağlı mühüm islahatların həyata keçirilməsi də sosial siyasətin başlıca istiqamətlərindən birini təşkil edir. Bu gün əminliklə demək olar ki, ölkəmizdə səhiyyənin güclü maddi-texniki bazası yaradılıb. Son dövrlərdə çox sayda yeni tibb ocağı inşa edilib, mövcud xəstəxana və tibb mərkəzləri əsaslı şəkildə bərpa olunub. Bu müəssisələr ən müasir tibbi avadanlıq və qurğularla təchiz edilib.***



Bütün bunlarla yanaşı, tibbi heyətin peşəkarlığının artırılmasına da dövlət səviyyəsində xüsusi diqqət göstərilib. Kifayət qədər səriştəli, savadlı kadr potensialı formalaşıb. Səhiyyə islahatlarının uğurla davam etdirilməsi birbaşa ölkə Prezidentinin diqqəti və nəzarəti altındadır. Ölkəmizin bütün regionlarında müasir tibb ocaqları fəaliyyətdədir və tibb xidmət göstərmək üçün həm kadr potensialı, həm də maddi-texniki baza var. Bu gün təsadüfi deyil ki, ölkəmizdə ən ağır tibbi əməliyyatlar uğurla həyata keçirilir. Bu məsələdə şübhəsiz ki, müasir tibb ocaqlarının yaradılması mühüm yerlərdən birini tutur. Bu işlərin miqyası ildənilə daha da genişlənir. "Yeni klinika" tibb müəssisəsinin yaradılması və burada ən müasir tibbi avadanlığın quraşdırılması da bunu bir daha təsdiq edir. Burada dünyanın aparıcı ölkələrinin şirkətlərinin son elmi-texniki yeniliklərə əsaslanaraq hazırladığı tibb avadanlığı və qurğuları quraşdırılıb.





Tibb ocağında quraşdırılan avadanlıq istər müalicə, istərsə də müayinə işini ən yüksək səviyyədə və dəqiqliklə yerinə yetirməyə hərtərəfli imkan verir. Görülən bütün bu işlərin isə bir məqsədi var ki, Azərbaycan vətəndaşları hərtərəfli tibbi xidmətlə təmin olunsun. "Yeni klinika" tibb müəssisəsinin açılışında iştirak edən Prezident İlham Əliyev "Xəstəxana bütün müasir standartlara cavab verir" - deyə çıxışı zamanı bildirib: "Ən önəmlisi odur ki, bu xəstəxanada ən müasir standartlar tətbiq olunur, ən müasir avadanlıq alınıbdır, təchizatla bağlı bütün işlər ən yüksək səviyyədə görülübdür. Hesab edirəm ki, bu gün bu xəstəxana Azərbaycanda təchizat baxımından, avadanlıq baxımından və burada göstəriləcək xidmət baxımından aparıcı xəstəxanadır".

Tibb ocağında cərrahiyyə, terapiya, təcili tibbi yardım, poliklinika, ürək və damar cərrahiyyəsi, neyrocərrahiyyə, hemodializ və digər şöbələr fəaliyyət göstərir. Artıq burada müvəqqəti olaraq koronavirusa yoluxan və ağır simptomları olan xəstələr müalicə alırlar. "Pandemiya başa çatana qədər bu xəstəxanada yalnız koronavirus xəstələri müalicə alacaqlar. Ona görə bu xəstəxananın işə düşməsi əlbəttə ki, koronavirusa qarşı mübarizədə bizə əlavə imkanlar yaradacaqdır" - deyə dövlət başçısı bildirib.

### "HAZIRDA HƏTTA ƏN İNKİŞAF ETMİŞ ÖLKƏLƏR BU XƏSTƏLİKLƏ MÜBARİZƏDƏ BÖYÜK PROBLEMLƏR YAŞAYIR"

Koronavirus xəstələrinin buraya yerləşdirilməsinin ən düzgün qərar olduğunu bildirən Prezident İlham Əliyev hazırda bu insanların ən həssas təbəqə olduğunu və onların müalicəsi, onlara lazımi tibbi xidmətin göstərilməsinin ən vacibliyini diqqətə çəkib: "...hazırda hətta ən inkişaf etmiş ölkələr bu xəstəliklə mübarizədə böyük problemlər yaşayır və inkişaf etmiş ölkələrdə gündə minə yaxın insan vəfat edir. Əgər tibb sahəsi çox inkişaf etmiş ölkələrdə bu xəstəliklə bağlı belə böyük problemlər varsa, təsəvvür etmək çətin deyil ki, bizim üçün nə qədər böyük problem yarana bilər. Ona görə koronavirus xəstələrinə ən yüksək xidmətin göstərilməsi üçün ölkəmizin ən müasir, ən gözəl xəstəxanası mənim qərarımla onların ixtiyarına verilir və siz həkimlər burada onlara xidmət göstərəcəksiniz".

### "BU MÜBARİZƏDƏ ƏSAS YÜK HƏKİMLƏRİN ÜZƏRİNƏ DÜŞÜR"

Günümüzün tələblərinə uyğun, beynəlxalq standartlara cavab verən tibb mərkəzi pandemiya başa çatandan sonra digər xəstəxanalar kimi bu xəstəxana da fəaliyyətini nəzərdə tutulmuş istiqamətdə davam etdirəcək. Bütün dünya ölkələrində olduğu kimi, bu gün Azərbaycan öldürücü virusla üz-üzədir. Belə olan halda ölkəmizin bütün tibb işçiləri səfərbər olublar. Belə bir çətin dönəmdə Azərbaycan dövləti öz vətəndaşının yanındadır. Həkimlərin əməyi yüksək dəyərləndirilir, ruh yüksəkliyi ilə çalışmalarına böyük dəstək göstərilir. "Əlbəttə ki, bu mübarizədə əsas yük həkimlərin üzərinə düşür" - deyən Prezident İlham Əliyev biz onların maddi təminatının yaxşılaşdırılması üçün əlavə tədbirlər görüldüyünü vurğulayıb: "Bildiyiniz kimi, koronavirus xəstələrinə xidmət göstərən həkimlərin maaşı 3, 4, 5 misli məbləğində artırılıb. Bu, dövlət tərəfindən həkimlərə göstərilən diqqətin təzahürüdür. Ancaq mən bilirəm və tam əminəm ki, həkimlərin əsas motivasiyası bu, deyil. Əsas odur ki, onlar öz vəzifə borcunu yerinə yetirmək istəyirlər. Onlar Hippokrat andına sadiqliklərini göstərmək istəyirlər. Onlar xalqımıza xas olan ən yüksək xüsusiyyətləri nümayiş etdirirlər və öz həyatlarını risk altına ataraq xəstələrə xidmət göstərirlər. Ona görə hər bir Azərbaycan vətəndaşı həkimlərə dəstək olmalıdır. O cümlədən koronavirusa yoluxmuş xəstələr başa düşməlidirlər ki, həkimlər belə ağır şəraitdə, sadəcə olaraq, yeriməyə çətinlik yaradan geyimlərdə, maskalarda onlara xidmət göstərirlər. Ona görə həkimlər ən yüksək qiymətə layiqdirlər".

### "ƏGƏR BİZ BU SAHƏYƏ FİKİR VERMƏSƏYDİK, BU GÜN BİZİM VƏZİYYƏTİMİZ ƏLBƏTTƏ Kİ, TƏLƏBATIMIZI TƏMİN EDƏ BİLMƏZDİ"

Əlbəttə ki əminliklə deyə bilərik ki, son illərdə ölkəmizin səhiyyə sisteminin təkmilləşdirilməsi sahəsində böyük işlər görülüb, 750-dən çox tibb müəssisəsi tikilib və ya əsaslı şəkildə təmir edilib. Bu işlər hələ də davam etdirilir. "Azərbaycanda elə şəhər yoxdur ki, orada müasir tibb mərkəzi, xəstəxana olmasın" - deyən Cənab Prezident üç-dörd şəhərdə mərkəzi rayon xəstəxanasının tikintisinin davam etdiyini və yaxın vaxtlarda orada açılışların gözlənildiyini qeyd edib: "Təkcə bu il Qazax, Goranboy və Şəmkir şəhərlərində mənim iştirakımla mərkəzi rayon xəstəxanalarının açılışı olmuşdur. Təsəvvür edin, əgər biz bu sahəyə fikir verməsəydik, bu gün bizim vəziyyətimiz əlbəttə ki, tələbatımızı təmin edə bilməzdi".

### "BİR DAHA HƏM ÖZÜMÜZƏ, HƏM BÜTÜN DÜNYAYA NÜMAYİŞ ETDİRİRİK Kİ, BİZ BÖYÜK XALQIQ"

Təbii ki, bu gün səhiyyə sistemində bu inkişaf olmasaydı, mövcud çətinliklə mübarizədə çətinlik yarana bilərdi. Azərbaycan hər zaman olduğu kimi, bu gün də öz vətəndaşının yanındadır. "Görülən bütün işlər, qəbul edilmiş qərarlar bir məqsədi güdür ki, biz bu ağır sınaqdan az itkilərlə çıxaq və vətəndaşlarımızı maksimum dərəcədə qoruyaq" deyən dövlət başçısı vəziyyətə uyğun atılmış addımlara nəzər salaraq bildirib ki. biz birinci ölkələrdən idik ki, ali məktəbləri, məktəbləri, uşaq bağçalarını bağladıq, quru sərhədlərimizi bağladıq, aviareyslərin sayını kəskin azaltdıq. Dövlət bütün zəruri tədbirləri görür: "Mən bir daha demək istəyirəm ki, dövlət nə lazımdırsa edir. Həkimlər əllərindən gələni edirlər. Xalqımız birlik, həmrəylik nümayiş etdirir. Ümid edirəm ki, məsuliyyət də lazımi səviyyədə olacaqdır. Belə olan halda, biz bu çətin sınaqdan az itkilərlə çıxa bilərik, öz vətəndaşlarımızın sağlamlığını qoruya bilərik. Bir daha həm özümüzə, həm bütün dünyaya nümayiş etdiririk ki, biz böyük xalqıq".

***Nəzakət ƏLƏDDİNQIZI***

# Adil Əliyev: "Əfv Sərəncamı ölkə Prezidentinin növbəti humanist addımıdır"



***"Ölkə Prezidenti cənab İlham Əliyev Azərbaycan Konstitusiyasının 109-cu maddəsinin 22-ci bəndini rəhbər tutaraq məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında Sərəncam imzalayıb. Bu, dövlət başçısının növbəti humanist addımıdır". Bunu SİA-ya açıqlamasında Milli Məclisin sədr müavini Adil Əliyev deyib.***

O bildirib ki, cəmiyyət həmişəki kimi Prezidentin bu qərarını müsbət qiymətləndirib: "Ancaq müxalifətin marginallaşan hissəsi yenə də öz ampluasındadır. Bir neçə gün əvvələ deyirdilər ki, niyə əfv verilmir. Əfv Sərəncamı verilir, indi isə bu fikrin tərsini deyirlər. Görünür, bu bəd niyyətli insanlar Prezidentin Sərəncamını sonadək oxumayıblar. Həmin sənədin giriş hissəsini radikal müxalifətin diqqətinə çatdırmaq istəyirəm. Sərəncam dünyada koronavirus infeksiyasının yayılması ilə əlaqədar yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyac duyan yaşı 65-dən yuxarı olan məhkumların və onların ailə üzvlərinin Azərbaycan Respublikası Prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə baxaraq, məhkumların sağlamlıq vəziyyətini, cəza çəkdikləri müddətdə davranışlarını nəzərə alaraq və humanizm prinsiplərinə əsaslanaraq imzalanıb".

A.Əliyev xatırladıb ki, bu Sərəncamdan bir neçə gün əvvəl 200 məhbus da azadlığa buraxılmışdı: "Bundan başqa, adına "siyasi məhbus" dedikləri şəxs azad olunaraq Avropa ölkələrindən birinə köçdü. İndi isə yaşı 65-dən yuxarı olan 176 məhkum əfv edildi. Sözdə liberal dəyərlərdən dəm vuran kəsim əslində əfvə qarşı çıxmaqla elan etdikləri dəyərlərin əleyhinə gedir. Koronavirusa görə əfv fərmanları bir neçə, o cümlədən radikal müxalifətin sitayiş etdiyi ölkələrdə də verilib. Qəribə məntiqdir. Radikal müxalifət həmin ölkələrdə əfv fərmanları verilləndə alqışlayır, onları nümunə göstərir, elə ki, oxşar sənəd Azərbaycanda qəbul olunanda buna qarşı etiraz edir. Yəni Prezidentin hansı qərar verməsindən asılı olmayaraq, ona qarşı kəskin müxalifdirlər. Əlbəttə, radikal müxalifətdən tərif gözləmirik, ancaq marginallar ağa qara deməklə ancaq ətrafındakı məhdud qrupu aldada bilərlər. Cəmiyyət isə növbəti əfv Sərəncamını alqışlayır".

Vitse spiker vurğulayıb ki, Əfv olunanların arasında azadlıqdan ömürlük məhrum olunmuş iki nəfər var: "Onlardan biri 20, biri isə 25 il cəza çəkib. Radikal müxalifətin sosial şəbəkələrdəki "liderləri" və onların trolları bunu dəyərləndirmək əvəzinə diqqəti ağır cinayət törədən və əfv olunan bir neçə şəxs ətrafında fokuslaşdırıblar. Radikal müxalifət yeni mövzu axtarışında məntiqsiz "niyə onlar əfv olundu, bizimkilər əfv olunmadı" sualı ilə sosial şəbəkələrdə gündəmi məşğul etmək istəyirlər. Daha anlamırlar ki, əfv sərəncamı radikal müxalifətin təbirincə desək, "onlarla" "bunlar" arasında fərq qoymur. Ona qalsa, əfv olunanlar arasında Nardaran hadisələrinə görə həbs olunan 2 nəfər də var, hansıları ki radikal müxalifət onları dəstəkləyirdi. Göründüyü kimi, dövlət kimsədən qisas almır. Əfv olunanlar cəzasının bir hissəsini çəkmiş, ciddi xəstəliyi olan və virusa yoluxma baxımından həssas qrupa - 65 yaşından yuxarılara şamil edilib. Ancaq marjinallar əfv olunmalı şəxslər arasında elə ad çəkirlər ki, heç həmin şəxsin hələ məhkəməsi olmayıb. Hansı hüququ dövlətdə məhkəməsi olmayan şəxsi əfv edirlər? Prezidentin və birinci vitse-prezidentin təşəbbüsü ilə dəfələrlə əfv Sərəncamları verilmiş, amnistiya Aktları qəbul olunmuşdur. Bəzən il ərzində bir neçə dəfə əfv sərəncamları olur. Ötən illər ərzində minlərlə məhbus azadlığa çıxıb. Dövlət başçısı azadlıqdan məhrum edilən və cəzasının böyük hissəsini çəkmiş insanları azadlığa buraxmaqla onlara ailələrinə qovuşmaq və etdikləri səhvdən nəticə çıxarmaq üçün şans verir. Koronavirusun yayıldığı indiki məqamda bu şans həm də həssas qrupa daxil olan insanlara münasibətdə humanist bir addımdır".

***Nailə Məhərrəmova***

# 190 manat birdəfəlik ödəməni necə əldə edə bilərsiz?

***"Əgər, işsiz kimi rəsmən qeydiyyatdan keçiblərsə müavinət ala bilərlər. İndidən sonra qeydiyyatdan keçsələr onlara iş təklifi edilməlidir. Əgər, iş təklifi olunmasa müavinət verilməlidir". Bu sözləri SİA-ya açıqlamasında iqtisadi məsələlər üzrə ekspert Natiq Cəfərli Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş Tətbirlər Planında işsiz kimi qeydiyyata alınan şəxslərə aprel-may aylarında hər ay üçün yaşayış minimumu həcmində 190 manat birdəfəlik ödəmə edilməsi və 2020-ci il ərzində pandemiyadan zərər çəkmiş sahələrdə çalışan muzdlu işçilərin əməkhaqqının müəyyən hissəsinin ödənilməsi üçün 300 min nəfərə 215 milyon manat həcmində kompensasiya verilməsini nəzərdə tutan qərarları şərh edərkən deyib.***



O bildirib ki, muzdlu işçi qeydiyyatdan keçən, vergisini verən və rəsmi şəkildə qeydiyyata alınmış müqavilələr əsasında çalışan işçidir. O əlavə edib ki, digər tərəfdən günəmuzd çalışan işçilər də var hansı ki, onların əməkhaqqıları gün hesabı ilə ödənilir: "Günəmuzd işçi yəni, onların heç bir qeydiyyatı yoxdur. Onların sayı daha çoxdur. Hələ ki, günəmuzd işçilər üçün xüsusi kömək də yoxdur. Onlar işsiz kimi qeydiyyatdan keçməlidirlər ki, müavinət alsınlar. Təbii ki, burada da bir fərq var. Bu müavinətlərlə maksimum 200 min insana yardım nəzərdə tutulub".

Günəmuzd işçilər işsiz kimi 190 manat maddi dəstəkdən yaranlana bilərlərmi sualına cavab olaraq ekspert əgər, işsiz kimi rəsmən qeydiyyatdan keçiblərsə ala bilərlər deyərək cavab verib. Bundan sonra qeydiyyatdan keçəcək olanlarla bağlı isə iqtisadçı məsələyə belə aydınlıq gətirib:

"İndidən sonra qeydiyyatdan keçsələr onlara iş təklifi edilməlidir. Əgər iş təklif olunmasa müavinət verilməlidir. Yəni prosedur belədir ki, qeydiyyatdan keçənlərlə Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin qurumları iş təklifi etməlidirlər. Əgər iş təklifindən imtina edilsə və ya iş təklifi olmasa müavinət verilməsi qərara bağlanır".

Əlavə edək ki, pandemiyadan zərər çəkmiş sahələrdə çalışan muzdlu işçilərə 215 milyon manat həcmində kompensasiya verilməsi ilə bağlı İqtisadiyyat Nazirliyinin yaydığı məlumatda, işəgötürənlərin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) mövcud elektron kabinetləri vasitəsilə təqdim etdikləri müraciətlər əsasında onun işçilərinə ödənilməli olan əməkhaqqının müəyyən hissəsi işəgötürənlərin bank hesablarına göçürüləcəyi və işəgötürənlər işçilərin əməkhaqqılarını ödəyə biləcəkləri qeyd olunub.

Həmçinin, işsiz kimi qeydiyyata alınan şəxslərin aprel-may aylarında 190 manat həcmində birdəfəlik ödəmələrin verilməsi ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi tərəfindən verilən məlumatda, qeydiyyata alınmaq üçün "www.e-sosial.az" portalına daxil olaraq "e-xidmətlər" bölməsindən müvafiq xidmətləri seçmək tövsiyə edilib.

# Vüqar Rəhimzadə: "Prezidentimizin növbəti əfv Sərəncamı humanist siyasətin əyani təzahürüdür"

***"Dövlətimizin başçısı İlham Əliyevin dünyanı bürüyən, böyük sosial və iqtisadi fəsadlara yol açan, eyni zamanda, insanların həyatını təhdid edən koronavirus pandemiyasına qarşı mübarizə tədbirləri sırasında yaşı 65-dən yuxarı olan vətəndaşlarımızın sağlamlığının təminatını prioritet məsələ kimi öndə saxlaması böyüklərimizə diqqət və hörmətin bariz nümunəsidir.***

Möhtərəm Prezidentimiz tərəfindən humanizm və insanpərvərlik istiqamətində atılan bütün addımlar Azərbaycanda vətəndaş amilinin dövlət siyasətinin əsasında dayandığını, daim onların təhlükəsiz, sağlam, əmin-amanlıq şəraitində yaşamasının prioritetliyini bir daha təsdiqləyir. Cənab İlham Əliyevin "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Sərəncamına uyğun olaraq yaşı 65-dən yuxarı olan 176 nəfərin cəzasının çəkilməmiş hissəsindən azad edilməsi də bu diqqətin tərkib hissəsi, dövlətimizin humanizm siyasətinin növbəti təzahürüdür". Bu fikirləri SİA-ya Yeni Azərbaycan Partiyası (YAP) Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə dövlət başçısının növbəti əfv Sərəncamı ilə bağlı KİV-ə açıqlamasında bildirib.

V.Rəhimzadə vurğulayıb ki, cənab İlham Əliyevin ölkə vətəndaşlarının koronavirus pandemiyasından etibarlı müdafiəsini təşkil etmək istiqamətində atdığı addımlar təqdir olunur, insan hüquq və azadlıqlarının qorunmasının, onların yüksək rifahının təmin edilməsinin prioritetliyini bir daha təsdiq edir: "Bu çağırışlar artıq günümüzün əsas tələbləri sırasındadır. Özümüzü, böyüklərimiz qoruyaq, əzizlərimizə dəstək olaq. Dövlətimizin başçısı İlham Əliyevin məlum əfv Sərəncamının sevincini yaşayan əfv olunan şəxslər bu humanist aktdan düzgün nəticə çıxarmalı, Azərbaycan dövlətinin qanunlarına dönmədən əməl etməlidirlər. Dövlət öz vətəndaşlarının bütün hüquq və azadlıqlarını qoruyur, təmin edir. Hər birimizin vətəndaşlıq borcu isə budur ki, cəmiyyətin idarə olunmasında əhəmiyyətli rol oynayan qanunlarımıza hörmətlə yanaşaq, onların tələblərinə dönmədən əməl edək".



Baş redaktor bildirib ki, bugünümüz üçün əsas vəzifəmiz koronovirus pandemiyasına qarşı mübarizə tədbirlərinin öz müsbət nəticəsini verməsinə dəstəyimizi göstərməkdir: "Əsas dəstək "Biz birlikdə güclüyük" prinsipini öndə saxlamaqla karantin qaydalarının tələblərinə əməl etmək, ətrafımızı bu xəstəliyə yoluxmadan xilas etmək olmalıdır. Dövlətimizin başçısı İlham Əliyevin daha riskli yaş qrupu olaraq 65 yaşdan yuxarı vətəndaşlarımızın qayğısına qalması, Nazirlər Kabineti yanında Operativ Qərargahın karantin qaydalarında da onların evdə olmasının bir tələb kimi irəli sürülməsi ölkə ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılanır. Yaşı 65-dən çox olan tənha şəxslərə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən sosial xidmətlər göstərilir. Onların gündəlik tələbatlarının ödənilməsi ilə bağlı zəruri ərzaq və avadanlıqlar, dərman vasitələrinin alınması, müxtəlif ödənişlərin edilməsi və sair kimi məsələlər dəstəklə təmin olunur. Dövlətimizin başçısı İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın xalqa müraciətlərində daha çox diqqət yönəldilən məsələ məhz böyüklərimizin qayğısına qalmaq, onlara hörmətlə yanaşmaqdır".

Diqqəti ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qaydışından bu günə qədər imzalanan əfv sərəncamlarına və qəbul olunan Amnistiya aktlarına yönəldən V.Rəhimzadə qeyd edib ki, son sənəd öz mahiyyəti baxımından xüsusi diqqət çəkir: "Dünyanı bürüyən koronavirus təhlükəsi ilə mübarizə tədbirlərinin gücləndirilməsinə ehtiyacın artdığı, eyni zamanda, dövlətimizin istər insanların sağlamlığının təminatı, istərsə də sosial və iqtisadi fəsadların aradan qaldırılması istiqamətində səylərinin gücləndirildiyi bir vaxtda cənab İlham Əliyevin cəzaçəkmə müəssisələrində olan böyüklərimizi də düşünməsi, onların bu xəstəliyə yoluxmaması üçün belə bir humanist sənədi imzalaması təqdirəlayiqdir".

V.Rəhimzadə sənədin icrasının başa çatdığını önə çəkərək bildirib ki, möhtərəm Prezidentimiz İlham Əliyev atdığı addımları ilə hər bir vətəndaşının yanında olduğunu, onların qayğısına qaldığını bir daha təsdiq etdi: "Ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyevin humanist addımları səhv etmiş insanlara həyatda yeni şansın verilməsinə, onların həyatın, azadlığın dəyərini dərk etmələrinə, səhvlərindən nəticə çıxarıb düzgün yola qayıtmalarına böyük dəstəkdir. Mərhəmətlilik, xeyirxahlıq, bağışlamaq kimi prinsipləri həyata keçirdiyi siyasətin önündə saxlayan Azərbaycan dövlətinin bu addımları, eyni zamanda, demokratik dəyərlərə sadiqliyin nümunəsi kimi də qiymətlidir".

# “Birdəfəlik ödəmə məhz işsiz hesab edilən şəxslərə veriləcək”

***Bəzən əmək müqaviləsi ilə işləyən şəxslər də birdəfəlik ödəmə üçün müraciət edirlər. Birmənalı şəkildə bilməliyik ki, dövlətin dəstəyi pandemiya dövründə sosial cəhətdən həssas təbəqəyə aiddir. Əgər ailənin bir üzvü əmək müqaviləsi ilə işləyirsə, ailə üzvlərinin digər nümayəndəsi əlavə dəstək ala bilməz. SİA xəbər verir ki, bunu Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev dünən birdəfəlik ödəmə ilə bağlı keçirdiyi mətbuat konfransında deyib.***

Nazir qeyd edib ki, gəlir mənbəyi olanların işsizliklə bağlı müraciət etmələri, sadəcə, işi ləngidir. Birdəfəlik ödəmə məhz işsiz hesab edilən və heç bir gəliri olmayan şəxslərə veriləcək. Əgər ailənin bir üzvü dövlətdən hansısa dəstək alırsa (müavinət, sosial yardım, pensiya və s.) ona birdəfəlik ödəmə verilməyəcək. Resurslardan düzgün şəkildə istifadə etməliyik. Son iki gündə 10 minlərlə müraciət emal olunub. Qeydiyyata düşən və haqqı olan hər kəsə ödəmə veriləcək.



# Azərbaycan koronavirusla bağlı müayinələrin sayına görə dünyada liderlər sırasındadır

***Ümumdünya Səhiyyə Təşkilatının rəyinə əsasən, koronavirus (COVİD - 19) pandemiyası ilə mübarizədə əsas şərtlərdən biri müayinələrin aparılması və xəstəlik hallarının vaxtında müəyyənləşdirilməsidir. Mütəxəssislər bu xəstəliyin sürətlə və geniş yayıldığını nəzərə alaraq, COVID-19-la bağlı testlərin keçirilməsinə daha çox diqqət yetirilməsinin vacibliyini qeyd edirlər. Yalnız bundan sonra yoluxan insanları təcrid etmək və onarın kontaktda olduğu şəxsləri müəyyənləşdirmək mümkündür.***

SİA-nın məlumatına görə, hazırda Azərbaycan Respublikasında həyata keçirilən qabaqlayıcı tədbirlər infeksiyanın yayılmasını mümkün qədər məhdudlaşdırmağa və sanitar-epidemoloji vəziyyəti nəzarətdə saxlamağa imkan verir. Ölkədə koronavirusa yoluxma hallarının müəyyənləşdirilməsi üçün bütün imkanlar mövcuddur, o cümlədən diaqnostik alətlər və tibbi ləvazimatlar vaxtında ölkəyə gətirilərək, tibb müəssisələrinə təhvil verilib.

Virusun laborator diaqnostikası üçün tibb müəssisələrində dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir laboratoriya sistemləri qurulmuş, onlar həmçinin Avropa ölkələrinin buraxdığı testlərlə təchiz edilib.

Aprelin 7-nə olan məlumata əsasən, ölkədə COVID-19-la bağlı 53 300 müayinə həyata keçirilib. Əhalinin hər bir milyon nəfərinə düşən müayinənin sayı 5262 nəfər təşkil edir. Bu rəqəm müayinələrin sayına görə Azərbaycanın MDB və Cənubi Qafqazda birinci yerdə olduğunu və bir çox Avropa ölkələrini qabaqladığını göstərir.

Müayinələrin vaxtında və əhatəli şəkildə aparılması xüsusilə həssas risk qrupları-yaşlılar, immunosupresiv xəstələr arasında COVID-19 infeksiyasının yayılmasının qarşısının vaxtında alınmasında mühüm rol oynayır. Hazırda ölkədə əhalinin COVID-19-a dair müayinələrinin keçirilməsi ilə bağlı işlər davam etdirilir, müvafiq laboratoriyalar qurulur, habelə tibb müəssisələri zəruri ləvazimat və preparatlarla təchiz edilir. Bu da onu deməyə əsas verir ki, qısa zaman ərzində müayinə dinamikasının artması müşahidə ediləcək.

Bu, Azərbaycan dövlətinin koronavirus infeksiyasına yoluxma hallarının qarşısının alınması, insanların sağlamlığının qorunması istiqamətində mühüm tədbirlər həyata keçirdiyini əyani şəkildə təsdiq edir.







## Koronavirus (COVID-19) infeksiyasına dair

MÜQAYİSƏLİ TƏHLİL CƏDVƏLİ

| Ölkə | Yoluxma hallarının ümumi sayı | Ölüm hallarının ümumi sayı | 1 milyon əhaliyə yoluxma sayı | 1 milyon əhaliyə ölüm hallarının sayı | Müayinələrin ümumi sayı | 1 milyon əhaliyə müayinə sayı |
|---|---|---|---|---|---|---|
| Azərbaycan | 717 | 8 | 71 | 0.8 | 53,300 | 5,262 |
| Avstriya | 12,109 | 220 | 1,344 | 24 | 111,296 | 12,357 |
| İtaliya | 128,948 | 15,887 | 2,133 | 263 | 691,461 | 11,436 |
| Almaniya | 100,132 | 1,584 | 1,195 | 19 | 918,460 | 10,962 |
| Belçika | 20,814 | 1,632 | 1,796 | 141 | 70,000 | 6,040 |
| Finlandiya | 2,176 | 27 | 393 | 5 | 32,800 | 5,920 |
| Niderland | 18,803 | 1,867 | 1,097 | 109 | 75,415 | 4,401 |
| Fransa | 92,839 | 8,078 | 1,422 | 124 | 224,254 | 3,436 |
| Böyük Britaniya | 47,806 | 4,934 | 704 | 73 | 195,524 | 2,880 |
| ABŞ | 336,851 | 9,620 | 1,018 | 29 | 1,772,369 | 5,355 |
| İran | 60,500 | 3,739 | 720 | 45 | 186,000 | 2,214 |
| Türkiyə | 27,069 | 574 | 321 | 7 | 181,445 | 2,151 |
| Rusiya | 6,343 | 47 | 43 | 0.3 | 758,000 | 5,194 |
| Belarus | 700 | 13 | 74 | 1 | 40,000 | 4,233 |
| Ukrayna | 1,319 | 38 | 30 | 0.9 | 5,864 | 134 |
| Qazaxıstan | 629 | 6 | 33 | 0.3 | 5,093 | 271 |
| Ermənistan | 833 | 8 | 281 | 3 | 4,929 | 1,663 |
| Gürcüstan | 188 | 2 | 47 | 0.5 | 2,762 | 692 |

# Koronavirusla mübarizədə həlledici mərhələ başlayıb. #EvdəQal, #BizBirlikdəGüclüyük

*Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, YAP Siyasi Şurasının üzvü Musa Quliyevin yap.org.az-a müsahibəsi*

***-Musa müəllim, ölkəmizdə koronavirus pandemiyasının geniş yayılmasının qarşısının alınması məqsədilə həyata keçirilən tədbirləri necə qiymətləndirirsiniz?***

-Koronavirusla mübarizədə həlledici mərhələ başlayıb. İki həftəlik sərt karantin rejimi bəşəriyyətin ümumi bəlasına çevrilmiş bu pandemiyanın ölkəmizdə sabitləşməsinə və idarə olunan həddə enməsinə təminatlar yaratmaqla yanaşı, həm də bizim milli birliyimizin, xarakterimizin indikatoru kimi də əhəmiyyətli olacaqdır. Azərbaycanda koronavirus pandemiyası ilə mübarizə kompleks şəkildə bütün parametrlər nəzərə alınmaqla aparılır. Prezidentimiz cənab İlham Əliyevin müəyyən etdiyi qabaqlayıcı tədbirlər ölkəmizdə epidemiyanın geniş yayılmasının qarşısını almağa yönəlib və öz müsbət nəticələrini göstərməkdədir.

Dünya təcrübəsi də göstərir ki, yoluxma sürəti olduqca yüksək olan bu virus pandemiyası ilə mübarizənin effektli nəticəsi önləyici, profilaktik tədbirlərin vaxtında və geniş həcmdə aparılmasından çox asılıdır. Cənab Prezidentin tapşırığı ilə ölkəmizin bütün resursları səfərbər olunub və koronavirus epidemiyası ilə ardıcıl, sistemli, çox şaxəli mübarizə aparılır.

Sərhədlərin bağlanması, xaricdə olan 15 mindən çox vətəndaşımızın ölkəyə gətirilməsinin və karantin rejiminə keçirilməsinin təmin edilməsi, müayinə test və laboratoriya ləvazimatlarının, eləcə də müalicə vasitələrinin alınıb gətirilməsi, Nazirlər Kabineti yanında Operativ Qərargah təşkil olunması, Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması, koronavirus infeksiyasının mənfi təsirlərinin azaldılması məqsədi ilə dövlət büdcəsindən başlanğıc olaraq 1 milyard manat vəsaitin Hökumətə ayrılması , iki həftəlik sərt karantin rejiminə keçilməsi və s. kimi tədbirlər Azərbaycan dövlətinin bu ümumbəşəri bəla ilə mübarizədə nə qədər güclü və əzmkar olmasının, dövlət başçısının siyasi müdrikliyinin və qətiyyətinin göstəricisidir.

***-Sumqayıt Kimya Sənaye Parkında Bakı Tekstil Kombinatının tibbi maska istehsalı müəssisəsinin açılışı oldu. Sizcə, bu müəssisənin istifadəyə verilməsi bu sahədə ehtiyacları qarşılamaq baxımından nə dərəcədə əhəmiyyətlidir?***

-Bu günlər bütün dünyada koronavirusla mübarizədə tibbi vasitələrin, xüsusi ilə qoruyucu maskaların qıtlığı hökm sürür, hər kəs bu problemi öz imkanları daxilində həll etməyə çalışır. SSRİ kimi superdövlətin hüquqi və siyasi varisi olan, bu gün də dünyanın supergüclərindən sayılan nəhəng Rusiyada maska qıtlığını aradan qaldırmaq üçün evlərdə, sexlərdə, dərzi emalatxanalarında kustar üsulla maska tikməyə başlamışlar. Əlbəttə bu da bir yoldur və heç olmamaqdansa, belə maskalara da qoruyucu vasitə kimi etibar etmək olar.

Azərbaycanda indiyə qədər maska istehsalı olmayıb və bu tibbi vasitəyə olan ehtiyac idxal hesabına ödənilib. Lakin koronavirus pandemiyası başlanandan hətta maska istehsal edən ölkələr də bu qoruyucu vasitənin defisiti ilə üzləşməli oldular. Problemin əsaslı həlli isə yerli istehsalı təşkil etməkdən keçirdi. Cənab Prezident bu məsələni də öz nəzarətinə götürdü və olduqca qısa müddətə- cəmi iki həftəyə ölkəmizdə tibbi maska istehsalı müəssisəsi yaradıldı və fəaliyyət başladı!

Cənab Prezident İlham Əliyevin və Birinci Vitse-Prezident Mehriban xanım Əliyevanın açılışını etdikləri Sumqayıt Kimya Sənaye Parkında Bakı Tekstil Kombinatının tibbi maska istehsalı müəssisəsi qısa müddət ərzində yaradılmış ən müasir texnologiya və tibbi standartlara cavab verən bir istehsal müəssisəsidir.

Ayrı bir vaxtda və şəraitdə bu müəssisənin açılışına bəlkə o qədər də diqqət cəlb etməyəcək sıradan bir hadisə kimi baxmaq olardı. Çünki biz bir vətəndaş olaraq, on beş ildən çoxdur ki, hər gün ölkəmizdə bir, yaxud bir neçə müəssisənin, yeni iş yerlərinin, sosial obyektlərin, parkların, yolların, körpülərin açılışını müşahidə edirik və bəlkə də bunları görmək bizim üçün adiləşmişdir. Hərçənd ki, bizə adi, gündəlik hadisə kimi gələn bu açılışlar, əslində, Azərbaycanın yeniləşmə, inkişaf və rifah göstəricisidir!



Amma koronavirusla mübarizədə dünyanın İran, İtaliya, İspaniya, Fransa, Amerika və s. kimi qos-qoca dövlətləri az qala çaşqınlıq, ümidsizlik və depressiya içərisində çabaladığı bir dövrdə Azərbaycan dövləti özəl sektorla birlikdə ən qısa müddətdə öz daxili tələbatını ödəyə biləcək gücdə tibbi maska istehsal edən yeni bir müəssisə qura bilirsə, bu dövlətin gücünün, nüfuzunun, dövlət rəhbərinin siyasi əzminin, iradəsinin, prosesləri qabaqlayaraq idarə etmək və zamanında düzgün qərar qəbul etmək kimi müdrikliyinin göstəricisidir!

Yeni müəssisə ilk vaxtlarda gündə 130 min, daha sonra isə 250 min tibbi maska, eləcə də dezinfeksiya vasitələri istehsal edəcəkdir.

***-Müəssisənin açılışı zamanı Prezident İlham Əliyev Azərbaycan xalqına müraciət etdi. Bu barədə də fikirlərinizi bilmək istərdik...***

-Cənab Prezidentin müəssisənin açılışında dediyi bu fikirlər olduqca qiymətli və ibrətamizdir: “Mən son illər ərzində yüzlərlə, bəlkə də mindən çox sənaye müəssisəsinin açılışında iştirak etmişəm, ancaq bu istehsalat sahəsi xüsusi əhəmiyyət daşıyır. Çünki bu gün Azərbaycanda istehsal olunan tibbi maskalar və dezinfeksiya vasitələri insanlarımızı qoruyacaq. Bizim də əsas məqsədimiz ondan ibarətdir ki, insanlar bu xəstəliyə yoluxmasın, insanların sağlamlığı təmin edilsin və buna nail olmaq üçün bütün tədbirlər görülür”.

Mindən çox sənaye müəssisəsinin açılışını edən Rəhbər üçün tibbi maska istehsal edən, o qədər də böyük olmayan, iqtisadi səmərə verməyə hesablanmayan bu müəssisənin açılışı ona görə xüsusi əhəmiyyət daşıyır ki, bu müəssisənin məhsulları insanlarımızın sağlamlığını qoruyacaq! Cənab Prezident dəfələrlə vurğulayıb ki, bizim siyasətin mərkəzində Azərbaycan vətəndaşı, onun sağlamlığı və sosial rifahı dayanır!

Cənab Prezidentin çıxışında xüsusi əhəmiyyət daşıyan mesajlardan biri də dövlət və özəl sektor partnyorluğudur, dövlətin sahibkarı qoruması, çətin dövrdə belə, iş adamına, işçiyə dəstəyini göstərməsi təşəbbüslərinin vacibliyidir.

Məhz bu müəssisə də dövlətin özəl sektora siyasi, hüquqi və güzəştli kredit dəstəyi sayəsində cəmi iki həftəyə qurulub fəaliyyətə başlamışdır. Eyni zamanda bu müəssisənin fəaliyyətə başlaması bizim daha bir sahədə- qoruyucu və dezinfeksiya edici vasitələrlə təminat sahəsində idxaldan asılılığımızı aradan qaldıracaqdır.

Cənab Prezidentin çıxışındakı başqa bir mühüm məqam defisitlə əlaqədar yaranmış möhtəkirlik hallarına qarşı ciddi mübarizə aparılmasının vacibliyinin vurğulanmasıdır: “İndi əsas məsələlərdən biri də odur ki, apteklərdə və digər ticarət yerlərində süni qiymət artımı olmasın. Çünki maska qıtlığı artıq süni qiymət artımına da gətirib çıxarmışdır və bəzi hallarda maskaları altdan satırdılar. Bu hallara qətiyyən yol verməmək olmaz və müvafiq dövlət qurumları çox ciddi nəzarət mexanizmi tətbiq etməlidirlər. Əgər süni qiymət artımı olarsa, bu işdə əli olan şəxslər ciddi cəzalandırılacaq. Çünki indiki pandemiya şəraitində belə addımlar xəyanət kimi qəbul ediləcək”.

Bəli, belə çətin bir zamanda xalqın ehtiyacından və defisitdən yararlanaraq möhtəkirlik etmək Vətənə və Millətə qarşı xəyanətdir! Günahını heç bir cəza yumayacaq, hər iki dünyada insanın üzünü qara edəcək bir xəyanətdir!

Eyni zamanda sosial şəbəkələrdə insanları çaşdıran, sərvaxtdan salan, dövlətin gördüyü böyük işlərə qara yaxan, vətəndaşlarımızda inamsızlıq yaradan informasiyalar və çağırışlar da xəyanətdir!

Ümumi evimiz olan bu gözəl Vətənimizə bəla gəlib, bu bəla ilə əl- ələ verb birgə mübarizə aparmaq əvəzinə kimsə özünün cılız siyasi və iqtisadi maraqlarını təmin etmək naminə xəyanət yolu tutubsa, onlar bizlərdən deyillər və koronavirusla bir cəbhədədirlər! Onlara qarşı da lazımi dezinfeksiya tədbirləri görülməlidir!

Epidemiyalarla mübarizədə karantin dövrünün davranış şərtləri hərbi və fövqəladə rejim dövrünün şərtlərinə bərabər tutulur və o şərtlər daxilində intizam tədbirlərinin görülməsi zəruridir. Belə zamanda gərəkirsə, müəyyən hüquq və azadlıqların məhdudlaşdırılmasını da qanunvericilikdə nəzərdə tutmaq olar. Koronavirusla bağlı bütün mülahizə və davranışlarda Operativ Qərargahın tövsiyyələri nəzərə alınmalıdır. İstənilən qanun pozuntusu sərt şəkildə cəza mexanizmi ilə aradan qaldırılmalıdır!

Azərbaycan koronavirusla mübarizədə önləyici addımlar atmaqda davam edir. Son günlərin məlumatları heç kimdə təşviş yaratmasın ki, xəstələrin sayı artır. Əslində belə düşünmək daha doğru olardı ki, xəstələrin deyil, aşkar olunanların sayı artır. Biz bu günə kimi 45 mindən çox insanımızı testdən keçirmişik. Ən kiçik şübhə olan hər kəsi!

45 min yoxlananın içərisindən 600-ə yaxın xəstənin aşkar edilməsi cəmi 1,4% təşkil edir, ölüm halları isə, şükürlər olsun ki, daha da azdır! Bu faiz nisbəti ilə götürüldükdə ən qabaqcıl ölkələrin göstəricisi səviyyəsindədir.

***-Koronavirusun ölkəmizin iqtisadi və sosial həyatına vura biləcəyi zərərin qarşısının alınması ilə bağlı hökumət tərəfindən müvafiq tədbirlər planı təsdiq edilib. Sizcə, bu kimi tədbirlər hansı nəticələri verəcək?***

-Koronavirusla və onun fəsadları ilə mübarizə sahəsində dövlətimizin gördüyü tədbirlər qənaətbəxşdir. Prezidentin sərəncamının icrası olaraq Nazirlər Kabineti ilk mərhələdə görüləcək tədbirlər paketini təsdiq edib. Əsas 3 istiqməti- iqtisadi artıma və sahibkarlığa dəstək , məşğulluq və sosial rifaha dəstək, makroiqtisadi və maliyyə sabitliyinin təmin olunması istiqamətlərini nəzərdə tutan tədbirlər planı bir milyard manatdan çox vəsaiti əhatə edəcəkdir. Bu planın artıq icrasına başlanılıb və təxminən iki milyona yaxın vətəndaşımızın sosial müdafiəsini nəzərdə tutur.

Görüləcək tədbirlər dövlət sektorunda 910 min, özəl sektorda 664 min muzdlu işçinin, habelə iş axtaran vətəndaşların, sosial müdafiəyə ehtiyacı olan şəxslərin, tənha ahılların, ödənişli əsaslarla təhsil alan tələbələrin və s. kateqoriyadan olan vətəndaşlarımızın sosial müdafiəsini təmin edəcəkdir.

Cənab Prezident xalqa müraciətində yeni, daha əhatəli və böyük maliyyə tutumlu dəstək proqramının hazırlanması barədə məlumatı da bir xoş müjdə kimi verdi:

“Ancaq sonra əlavə hesablamalar bunun kifayət etməyəcəyini göstərdi və ən azı 2,5 milyard manat ayrılacaq ki, Azərbaycanda həm iqtisadi sabitlik təmin edilsin, məşğulluqla bağlı problemlər öz həllini tapsın və həm də bizim makroiqtisadi və maliyyə vəziyyətimiz sabit olsun”.

Heç şübhəsiz ki, ikinci tədbirlər planı daha geniş, daha əhatəli olacaq, bütün kateqoriyadan olan vətəndaşlarımızın, o cümlədən, əmək müqaviləsi olmadan, gündəmuzd çalışan, hazırda isə işsiz qalmış insanların sosial müdafiəsini təmin etməyə imkanlar tanıyacaqdır.

Dost dar gündə sınanır. Bu çətin gündə dövlətimiz xalqımızın yanında, onun xidmətində olduğunu hər anda göstərir. Dövlət, hökumət, alimlərimiz, tibb işçilərimiz, polisimiz, mətbuat nümayəndələrimiz karantin şəraitində də yorulmadan çalışır, titanik zəhmət çəkir. Bütün bu işlər cənab Prezident İlham Əliyevin rəhbərliyi və nəzarəti altında aparılır.

Azərbaycan koronavirusla mübarizənin həlledici mərhələsinə hazırlaşdığı ərəfədə ölkənin Birinci Vitse-prezidenti Mehriban xanım Əliyeva da xalqa növbəti müraciətini etdi. “Sizin Mehriban” imzası ilə edilən bu son dərəcə sadə və səmimi, eyni zamanda həyəcanlı və səfərbər edici müraciətin hər sətirində öz doğma xalqına hədsiz sevgi, qayğı, xidmət etmək istəyi və xoşbəxt gələcəyimizə inam hissi əks olunmuşdur:

“Mən sizə bir övlad, bir həyat yoldaşı, bir ana və nənə olaraq müraciət edirəm! Qəlbimin dərinliklərindən gələn və hər birinizə ünvanlanan bu sözlərimi eşidib məni anlayacağınıza ümid edirəm! Xahiş edirəm, bunu mütləq zərurət və vəzifəniz kimi qəbul edin - NÖVBƏTİ 20 GÜN ƏRZİNDƏ HAMI EVDƏ QALMALIDIR. AİLƏLƏRİNİZLƏ BİRLİKDƏ. XAHİŞ EDİRƏM, VACİB ZƏRURƏT OLMADAN EVLƏRİNİZİ TƏRK ETMƏYİN!”

Koronavirus dövlət sərhədlərini tanımır, sosial sədləri tanımır, alim-nadan, varlı-kasıb, qoca-cavan tanımır. Bu bəladan heç kəs sığortalanmayıb. Bu bəladan hamımız birlikdə qoruna bilərik, bir- birimizi qorumqla!

Sosial təcrid tədbirlərinə ciddi əməl etməklə! Hamımız anlamalıyıq və bir- birimizi anlatmalıyıq ki karantin qaydalarını pozmaqla təkcə özümüzü və yaxınlarımızı xəstələnmək riski ilə üz-üzə qoymuruq, həm də cəmiyyətə qarşı sayğısızlıq göstərir, onun dəyərlərinə qəsd etmiş oluruq!

Xalqın mədəniyyəti və xarakteri ekstremal vəziyyətlərdə özünü daha qabarıq şəkildə büruzə verir. Mədəniyyətin ən mühüm göstəricilərindən biri də intizamlı olmaq və özünü təşkil etmək keyfiyyətidir. Xalqımızın bir məqsəd naminə səfərbər olunması keyfiyyəti olduqca yüksəkdir və biz bunun dəfələrlə şahidi olmuşuq. Böyük təhlükələri böyük mütəşəkkilklə, böyük birliklə, böyük intizamla önləmək mümkündür.

Çəkicimizi bir zindan vurmaq zamanıdır! Biz birlikdə güclüyük!

# Növbəti humanist qərar

*Azərbaycan Prezidenti İlham Əliyevin məhkum edilmiş şəxslərin əfv olunması haqqında Sərəncamı ümumilikdə 176 nəfərə şamil olunur*

***Milli adət-ənənələrə hörmət, insanları sülhə, birliyə, əmin-amanlığa çağırmaq xalqların böyüklüyünü və dəyərlərinə sadiqliyini göstərən amildir. Azərbaycan xalqı tarixən bağlandığı adət-ənənələrinə sadiqliyi ilə seçilib. Xüsusi ilə, xalqımız humanizm prinsiplərinə, xeyirxah əməllərə daha çox riayət edir. Buna görə də, hər zaman dünya xalqları arasında xüsusi hörmətə, nüfuza sahib olub. İnsanpərvərliyin və humanizmin qorunub saxlanması, adət-ənənələrin inkişaf etdirilməsi Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda xalqın çağırışı ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra daha geniş şəkildə dünya birliyinə və xalqlarına çatdırılması həyata keçirildi.***



Bununla yanaşı, Ulu Öndərimiz Heydər Əliyev ölkəmizdə əfvetmə institutunun fəaliyyətini bərpa etməklə vətəndaşların dövlətə, onun rəhbərinə ümid və etimadını artırmış, cəzanın müvafiqliyi və humanistliyi məsələlərinə xüsusi diqqətlə yanaşılmasını təmin etmişdir. Məhz Ulu Öndərimizin əfv fərmanı ilə minlərlə məhbus öz ailələrinə qovuşmuş, cəmiyyətin layiqli vətəndaşına çevrilməklə ölkəmizin inkişafına öz töhfələrini vermişlər. Ümumilikdə Dahi Öndərimiz Heydər Əliyev 1995-2003-cü illərdə 32 əfv Fərmanı imzalamışdır. Bütün bunlar cəmiyyətdə dövlətə, onun qurucusuna böyük inam yaratmışdır. Digər tərəfdən isə əfvetmənin tərbiyəvi əhəmiyyətini artırırdı. Bu gün Ulu Öndərimiz Heydər Əliyevin hümanizm dəyərləri Onun ən layiqli siyasi varisi, ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizi qüdrətli dövlətə çevirmək üçün var qüvvəsi ilə çalışan Prezident İlham Əliyevin humanizm prinsiplərini də inkişaf etdirməsi Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir. Çünki dövlətimizin ədalət və humanizm prinsiplərinə sadiqliyi həm bəşəri, həm də milli dəyərlərimizə söykənən xoş əməllərdəndir.






## Humanizm ənənələrini davam etdirən LİDER

Dünyada koronavirus (COVİD-19) infeksiyasının yayılmasından sonra Azərbaycan Prezidenti İlham Əliyev bu virusun aradan qaldırılması istiqamətində qabaqlayıcı tədbirlərin görülməsində mühüm qərarlar verdi, addımlar atdı, cəmiyyətin bütün təbəqələrinin maddi təminatının yaxşılaşdırılması məqsədilə müvafiq sərəncamlar imzaladı. Bu proseslər fonunda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin humanizm ənənələrini davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" 2020-ci il 6 aprel tarixli Sərəncamına əsasən 176 məhkum, o cümlədən 165 kişi və 11 qadın cəzanın çəkilməmiş hissəsindən azad edilmişdir. Sərəncam koronavirus (COVİD-19) infeksiyasının yayılması ilə əlaqədar yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyacı olan, yaşı 65-dən yuxarı bir sıra məhkumlara şamil olunmuşdur. Əfv məsələsinə baxılarkən məhkumların və onların ailə üzvlərinin müraciətləri, məhkumların səhhəti, törətdikləri cinayətlər, cəza çəkdikləri müddətdə davranışları və digər məsələlər nəzərə alınmışdır. Sərəncamda əfv edilən şəxslərin bu humanist aktdan düzgün nəticə çıxaracağına, Azərbaycan dövlətinin qanunlarına gələcəkdə dönmədən əməl edəcəklərinə əminlik ifadə olunmuşdur.



## Əfv aktı Prezident İlham Əliyevin insanpərvər

# Növbəti humanist qərar

*Azərbaycan Prezidenti İlham Əliyevin məhkum edilmiş şəxslərin əfv olunması haqqında Sərəncamı ümumilikdə 176 nəfərə şamil olunur*

## siyasətinin növbəti təzahürüdür

Sayca 34-cü olan hazırkı əfv aktı Azərbaycan Prezidentinin insanpərvər siyasətinin növbəti təzahürü olmuşdur. Dövlət başçısının imzaladığı qanunvericilik aktlarına əsasən, indiyə kimi 4871 şəxs əfv edilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə qəbul edilmiş Amnistiya Aktları 40412 şəxsi əhatə etmiş, onlardan 8580 nəfər azadlıqdan məhrumetmə cəzasından azad olunmuşdur.

Azərbaycanda 1995-ci ildə təsis olunmuş Əfv İnstitutu 25 ilə yaxındır ki, tətbiq edilir və bu günədək 5 min 938 məhkuma şamil olunub. Dövlət başçısı İlham Əliyevin məhbusların cəzasının çəkilməmiş hissəsindən azad edilməsi haqqında Sərəncamı insanların cəmiyyətə inteqrasiya olunmalarına, sivil Azərbaycan dövlətinin layiqli vətəndaşı kimi uca adı daşımalarına bir daha imkan yaradır. Bu kimi sərəncamlar, eyni zamanda vətəndaşların qanunlara hörmət etməsinə müsbət təsir göstərir və Ulu Öndərin insanpərvərlik ənənələrinin ölkəmizdə layiqincə davam etdirildiyini əks etdirir. Dövlət başçısı həmişə vurğulayır ki, insan hüquq və azadlıqlarının, o cümlədən fikir azadlığının müdafiəsi Azərbaycan dövlətinin ali məqsədi və fəaliyyətinin ən mühüm istiqamətlərindən biridir: “Ölkəmizin gələcəyi təkcə iqtisadi amillərlə ölçülmür. Əgər Azərbaycanda müasir siyasi sistem yaranmasa, əgər demokratik prinsiplər tam şəkildə bərqərar olunmasa, bizim uğurlarımız müvəqqəti xarakter daşıyacaq”. Prezident İlham Əliyev iqtisadi və siyasi islahatların paralel şəkildə aparılmasının bugünkü uğurlarda mühüm rol oynadığını bir daha diqqətə çatdırır.

Bir sözlə, Prezident İlham Əliyevin imzaladığı Əfv Sərəncamı humanizm siyasətinin növbəti təntənəsini təşkil edir. Öz növbəsində dövlətin öz vətəndaşlarına verdiyi dəyəri əks etdirən humanist siyasəti xalq tərəfindən yüksək qiymətləndirilir və bu da əhalinin ölkə rəhbərliyinə olan etimadını daha da artırır. Nəticədə, cəmiyyətdə qarşılıqlı hörmət və rəğbət, habelə qanunçuluq prinsiplərinə söykənən vətəndaş-hakimiyyət münasibətləri formalaşır.











**İ.ƏLİYEV**

# Ölkəmizə turistlərin səyahəti üçün geniş imkanlar var

***Azərbaycanda turizm sahəsində yaradılan geniş imkanlar xarici turistlərin ölkəmizə səfər etməsinə böyük təsir göstərir. Ölkəmizə turistlərin səyahət etməsi üçün dünyada tanınmış brend hotelləri fəaliyyət göstərməsi, bir sıra xarici ölkə vətəndaşları üçün viza sisteminin sadələşdirilməsi və "ASAN viza" sisteminin tətbiqi, eləcə də, ölkəmizin tarixi abidələri, mədəniyyəti, coğrafi mövqeyi də bu sahənin inkişafına müsbət təsirini göstərib.***

Görülən işlərin nəticəsidir ki, ölkəmizə gələn turistlərin sayı ilbəil artır. Belə ki, cari ilin yanvar ayında Azərbaycana gələnlərin sayı 18% artıb. 2020-ci ilin yanvar ayında Azərbaycana səfər etmiş xarici vətəndaşların sayı 2019-cu ilin yanvar ayı ilə müqayisədə 35 min və ya 18.1% artaraq 226 min nəfərə çatıb.

Ümumilikdə, isə cari ilin yanvar-fevral aylarında Azərbaycana dünyanın 149 ölkəsindən 426,1 min və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 17,0 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib. Gələnlərin 28,7 faizi Rusiya Federasiyası, 28,7 faizi Gürcüstan, 11,2 faizi Türkiyə, 6,2 faizi İran, hər birindən 2,6 faiz olmaqla Səudiyyə Ərəbistanı və Hindistan, hər birindən 1,8 faiz olmaqla Birləşmiş Ərəb Əmirlikləri və Ukrayna, 1,6 faizi Küveyt, 1,5 faizi Pakistan, 1,4 faizi Qazaxıstan, hər birindən 1,1 faiz olmaqla Türkmənistan və İraq, 0,9 faizi Böyük Britaniya, hər birindən 0,8 faiz olmaqla İsrail və Özbəkistan, 7,1 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olub. Gələnlərin 72,3 faizini kişilər, 27,7 faizini isə qadınlar təşkil edib.









Bu dövrdə ölkəmizə gələnlərin sayında daha çox artım Səudiyyə Ərəbistanı, İsrail, Macarıstan, Hindistan, Küveyt, Bəhreyn və digər ölkə vətəndaşları arasında qeydə alınıb.

Ümumilikdə, Avropa İttifaqına üzv ölkələrdən Azərbaycana gələnlərin sayı 5,7 faiz artaraq 12,2 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 21,2 faiz artaraq 147,7 min nəfər, Körfəz ölkələrindən gələnlərin sayı 17,4 faiz artaraq 62,2 min nəfər olub. Ölkəmizə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 64,0 faizi dəmir yolu və avtomobil, 35,0 faizi hava, 1,0 faizi isə dəniz nəqliyyatından istifadə edib.

Onu da vurğulayaq ki, koronavirusla əlaqədar olaraq Azərbaycana gələn turistlərin sayında artım fevralın sonuna qədər müşahidə edilib.

***Nəzakət ƏLƏDDİNQIZI***

## 190 manat birdəfəlik ödəmə ilə bağlı vətəndaşların müraciətlərinin qəbulu yalnız onlayn qaydada aparılır

Koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə ölkə ərazisində elan edilmiş xüsusi karantin dövründə Məşğulluq Mərkəzləri tərəfindən vətəndaşların qəbulu dayandırılıb.

190 manat birdəfəlik ödəmə ilə bağlı vətəndaşların müraciətlərinin qəbulu yalnız onlayn qaydada aparılır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, onlayn qaydada müraciət etmək üçün nazirliyin e-sosial.az portalında, hər hansı bir qeydiyyat proseduru tələb olunmadan "online müraciət" bölməsinə daxil olaraq, işsiz və ya işaxtaran kimi uçota alına bilərsiniz. Müraciət şəxsiyyət vəsiqəsinin və FİN nömrələrini daxil etməklə, "İstiqamət" bölməsində "məşğulluq sahəsində göstərilən xidmətlər", "Xidmət növü" bölməsində isə "vətəndaşların işaxtaran və işsiz kimi qeydiyyata alınması və qeydiyyatdan çıxarılması" bölmələrini seçməklə həyata keçirilir.

## Nazim Talıbov: "Parkın ərazisində yerləşən müəssisələrdə işçilərin ixtisarı aparılmır"



Bu günə qədər Sumqayıt Kimya Sənaye Parkında 22 sahibkarlıq subyektinə rezident statusu verilib. Hazırda 14 rezident istər daxili, istərsə də xarici bazarlar üçün məhsul istehsal edir. AZƏRTAC xəbər verir ki, bunu "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin direktoru Nazim Talıbov jurnalistlərə Parkın rezidenti, tibbi maska istehsal edən "Bakı Tekstil Fabriki" MMC-nin zavodu ilə tanışlıq zamanı deyib. "Sənaye parkına ümumi investisiya qoyuluşu portfeli 3,1 milyard ABŞ dolları məbləğində qiymətləndirilir. Real kapital qoyuluşu isə 2,8 milyard ABŞ dollarıdır. Hazırda burada 5 mindən artıq insan işlə təmin olunub. Karantin rejimində işləməyimizə baxmayaraq, sənaye parkının ərazisində yerləşən müəssisələrdə işçilərin ixtisarı aparılmır", - deyə N.Talıbov bildirib.

## "Nacional" qəzeti :
## Ermənilər Qarabağa gəlmədirlər


Monumenti historik "Maraga-150"
NACIONAL

Albaniyanın "Nacional" qəzetində ermənilərin Dağlıq Qarabağa gəlmə olduqlarından bəhs edən "Tarixi abidələr: Marağa - 150" sərlövhəli məqalə dərc olunub. Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, Albaniya - Azərbaycan Dostluq, Elm və Mədəniyyət Cəmiyyətinin sədri, tarixçi-alim Entela Muçonun köməyi ilə işıq üzü görən məqalənin müəllifi "Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi" İctimai Birliyinin sədri Fuad Hüseynzadədir.

Məqalədə ermənilərin miqrasiyasına dair məlumatların bir çox yazılı mənbələrdə yer aldığı bildirilib, müxtəlif illərdə İrandan və Türkiyədən ermənilərin Azərbaycan torpaqlarına köç etmələri konkret faktlarla göstərilib. Qeyd edilib ki, 1828-ci il fevralın 10-da Rusiya ilə İran arasında imzalanan Türkmənçay müqaviləsindən sonra ermənilərin Azərbaycan ərazilərinə kütləvi şəkildə köçürülməsinə başlanıb. Təkcə 1828-1829-cu illərdə İrandan 40-50 min, Türkiyədən isə 90 min erməni Azərbaycana köçürülüb.

Qəzetdə qeyd olunur: "...ermənilər Qarabağa gəlmələri münasibətilə "Marağa-150" abidəsini ucaldıblar. "Marağa-150" abidəsi 1978-ci ildə ermənilərin özləri tərəfindən İran Marağasından ilk 200 ailənin Qarabağa köçürülməsinin 150 illiyi ilə əlaqədar inşa edilib. Adi çay daşlarından qurulan abidənin üzərində erməni dilində "Marağa-150" yazısı öz əksini tapıb və oxşar abidələr Xankəndi şəhərində, Tərtər rayonunun Çaylı kəndində də inşa edilib".

Məqalədə qeyd olunur ki, 2016-cı ildə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Furio de Angelisi Tərtər rayonunda səfərdə olarkən Şıxarx kəndində "Marağa-150" abidəsinə baxıb və həmin abidənin şəkillərini çəkib. Qeyd edək ki, sözügedən mövzu artıq Albaniya dövlət radiosunun da diqqətini cəlb edib və radio tarixçi-alim Entela Muçonun iştirakı ilə bu mövzuda veriliş yayımlamaq niyyətindədir.

# Qarabağdakı saxta “seçkilər” dünya tərəfindən tanınmır

*“Seçkilər”ə münasibətlə dünya ictimaiyyəti bir daha rəsmi Yerevana “qırmızı kart” göstərərək işğalın və onun nəticələrinin heç bir zaman qəbul edilməyəcəyi mesajını göndərmiş oldu*




***Məlum olduğu kimi, Azərbaycanın işğal altındakı ərazilərində “prezident” və “parlament” seçkilərinin keçirilməsi - xüsusilə, koronavirus epidemiyasının dünyanı öz cənginə aldığı bir vaxtda qondarma “DQR”də belə bir saxta tədbirin keçirilməsi dünya tərəfindən tanınmadı və nəticələri rədd edildi. Əslində, bu, gözlənilən idi və söz yox ki, işğalçılıq siyasətinə söykənən bu mənfur addım bilavasitə Ermənistan rəhbərliyinin növbəti oyunbazlığı idi.***

Bu kimi oyunbazlıqlar isə, yeniləşən beynəlxalq siyasi aləmdə artıq qəbul olunmur. Əbəs deyil ki, işğal olunmuş ərazilərimizdə keçirilmiş qondarma “seçkilər”dən dərhal sonra onun qondarma nəticələri beynəlxalq ictimaiyyət tərəfindən birmənalı olaraq rədd edildi və ölkəmizin suverenliyi, o cümlədən ərazi bütövlüyünə dəstək göstərildi.

## Türkiyədən tutmuş uzaq Kanada və Avstraliyaya qədər, Türk Şurasından tutmuş NATO-ya qədər dünya ictimaiyyətinin rəyi yekdil və birmənalıdır!

Daha dəqiq desək, əvvəlki illərdən fərqli olaraq müxtəlif ölkələr və beynəlxalq təşkilatlar tərəfindən verilmiş bəyanatların sayı daha da artdı. Eyni zamanda, həm də ölkələrin və beynəlxalq təşkilatların mövqeyi açıq bəyanat formasında ifadə edildi ki, bu da işğalçıları sözün əsl mənasında dalana dirəyərək fiaskoya uğratdı. Belə ki, “seçkilər”ə dair münasibət Türkiyə, Ukrayna, Gürcüstan, Bosniya və Herseqovina, Moldova, Kanada, Avstraliya, Qoşulmama Hərəkatı, Türk Şurası, Türk Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, Demokratiya və İqtisadi İnkişaf Təşkilatı-GUAM, ATƏT-in Minsk Qrupunun həmsədrləri, ATƏT Parlament Assambleyası, Avropa İttifaqı, NATO, Çex Respublikası, Estoniya, Latviya, Litva, Rumıniya, Bolqarıstan, Finlandiya, Almaniya, İtaliya, Monteneqro, Böyük Britaniya, Belçika, İsveç, Xorvatiya, İran və digərləri tərəfindən sərt bəyanatlarla ifadə edildi. Beləliklə, həmin siyahıdan da məlum olur ki, Türkiyədən tutmuş uzaq Kanada və Avstraliyaya qədər, Türk Şurasından tutmuş NATO-ya qədər dünya ictimaiyyətinin rəyi yekdil və birmənalıdır!

Qeyd edək ki, sözügedən bəyanatlarda Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ regionunda keçirilmiş qondarma “seçkilər” tanınmır və qeyri-qanuni hesab olunur. Həmçinin, qondarma “seçkilər”in keçirildiyi konstitusional və hüquqi çərçivə tanınmır və beləliklə “seçkilər” heç bir hüquqi qüvvəyə malik deyildir.

## Münaqişənin BMT-nin Təhlükəsizlik Şurasının məlum qətnamələri əsasında həllinə dəstək ifadə olunur

Digər tərəfdən, xüsusilə vurğulandı ki, qondarma “seçkilər”in nəticələri davam edən danışıqlar prosesini və bölgənin statusunu əvvəlcədən müəyyənləşdirmir. Yəni Ermənistanın işğalçılıq siyasəti pislənilir və Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünə və suverenliyinə dəstək ifadə olunur. Habelə, münaqişənin BMT-nin Təhlükəsizlik Şurasının məlum qətnamələri əsasında həllinə dəstək ifadə olunur. Buna misal kimi daha bir mühüm amilə diqqət yetirə bilərik. Məsələ ondadır ki, burada xüsusilə tərkibində Avropa, Asiya, Afrika, Latın Amerikası, Okeaniyadan 120 dövləti birləşdirən və BMT-dən sonra ikinci ən böyük siyasi təsisat sayılan Qoşulmama Hərəkatının yaydığı kommünikeni qeyd etmək olar. Belə ki, Qoşulmama Hərəkatı yuxarıda göstərilən mesajlardan əlavə, ərazilərin güc yolu ilə qəsb edilməsinin yolverilməz olduğunu və Azərbaycan ərazilərinin işğalı nəticəsində yaranmış vəziyyətin heç bir ölkə tərəfindən tanınmayacağını vurğulayıb.

## Azərbaycanın işğal olunmuş ərazilərində seçkilər yalnız Azərbaycan Respublikasının Konstitusiyası çərçivəsində keçirilə bilər

Bu məsələyə daha dəqiq prizmadan yanaşaq. Belə ki, bəyanatlarda yer alan “seçkilər”in konstitusional və hüquqi çərçivəsi tanınmır” ifadəsi ilə beynəlxalq ictimaiyyətin verdiyi mesaj ondan ibarətdir ki, Azərbaycanın işğal olunmuş ərazilərində seçkilər yalnız Azərbaycan Respublikasının Konstitusiyası çərçivəsində keçirilə bilər.

Bundan başqa, digər ölkələrdən olan deputatlar da daxil olmaqla, ayrı-ayrı şəxslər tərəfindən verilmiş açıqlamalarda bütün dünyanın hazırda koronavirus pandemiyası ilə üzbəüz qaldığı bir vaxtda “seçkilər”in keçirilməsi həm də məsuliyyətsiz addım kimi dəyərləndirilib.

Beləliklə, “seçkilər”ə münasibətlə dünya ictimaiyyəti bir daha rəsmi Yerevana “qırmızı kart” göstərərək işğalın və onun nəticələrinin heç bir zaman qəbul edilməyəcəyi mesajını göndərmiş oldu. Bununla dünya həm də bir daha göstərdi ki, Qarabağ Azərbaycandır!

Bütün bu kimi faktlar isə sübut edir ki, işğalçı Ermənistan “seçki”, “demokratiya” kimi perspektivsiz şoularını bir tərəfə qoyub səmimi və ciddi şəkildə sülh danışıqlarında iştirak etməli və öz qoşunlarını Azərbaycan Respublikasının işğal olunmuş ərazilərindən çıxarmalıdır. Münaqişə yalnız Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünün tam olaraq bərpa olunması ilə həll oluna bilər.

*Rövşən RƏSULOV*

# “Əfv Sərəncamı Prezidentin vətəndaşa diqqət və qayğısının daha bir nümunəsidir”



Adətən ölkəmizdə əlamətdar tarixi günlərdən, bayramlardan əvvəl Prezident İlham Əliyevin humanist siyasətini təsdiqləyən əfv sərəncamları imzalanır, müəyyən səbəblər üzündən cinayət törədərək, azadlıqdan məhrum olan insanlar azadlıqlarına qovuşardılar. Bu dəfə fərqli vaxtda - koronavirus pandemiyası kabusunun insanları təhdid etdiyi bir vaxtda dövlətimizin başçısı tərəfindən əfv Sərəncamı imzalandı.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Pərvin Kərimzadə deyib. Deputat qeyd edib ki, dünyada koronavirus infeksiyasının yayılması ilə əlaqədar yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyac duyan yaşı 65-dən yuxarı olan məhkumların, ailə üzvlərinin müraciətləri, məhkumların sağlamlıq vəziyyəti, cəza çəkdikləri müddətdə davranışları nəzərə alınaraq imzalanan əfv Sərəncamı ulu öndər Heydər Əliyevin təməlini qoyduğu humanist siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyinin növbəti təsdiqi oldu. P.Kərimzadə bildirib ki, azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş 176 nəfərin cəzasının çəkilməmiş hissəsindən belə bir çətin vaxtda azad edilməsi dövlətin humanizm prinsiplərinin, dəyərlərinin yüksək həddə olduğunun göstəricisinə çevrilib.

“Prezident İlham Əliyevin imzaladığı Sərəncam cinayət törətmiş şəxslərə qarşı humanist addım olmaqla yanaşı, dövlət siyasətinin əsasını insan amili təşkil etdiyini yenidən göstərdi. Koronavirus təhlükəsindən qorunmağa çalışan insanlar bu Sərəncamı ruh yüksəkliyi ilə qarşıladılar. Əfv olunan insanların sağlamlığını qorumaq, onları virusa yoluxmaqdan uzaq tutmaq üçün atılan addımın dövlətin humanist siyasətinin, vətəndaşa verilən diqqət və qayğının ardı-arası kəsilməyən nümunələrindən biri kimi qəbul edildi.

# “Milli Şuranın dezinformasiya yayması onları bir daha xalqın gözündən salır”



“Bu gün dünyada milyardlarla insanın adi həyat və məişətini şəraitini tamamilə dəyişdirən koronavirus pandemiyası sürətlə alovlanmaqda davam edir. Bu gün dünya kütləvi informasiya vasitələrinin xəbərləri demək olar ki, yalnız bir mövzuya həsr olunub. “Pandemiya” Hər gün yüzlərlə yeni ölümlər və yoluxma xəbərləri gəlir. Bu isə bütün bəşəriyyəti sarsıdır və kədərləndirir”. Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı İlham Məmmədov deyib.

Onun sözlərinə görə, həmrəylik və birliyin bu bəlaya qarşı yeganə silah olduğunu artıq hamı dərk etməyə başlayır: “Lakin ölkəmizdəki “milli şura” adlandırılan bir qrup ünsürlər Azərbaycanda formalaşan bu birliyi, xalq-dövlət həmrəyliyini parçalamaq üçün yollar axtararaq şər-böhtan kampaniyaları ilə beşinci kalon olaraq təxribatlar törətməyə çalışırlar. Ölkəmizdəki beşinci kolonun “virusları” bu gün baş verən ağır situasiyanın çox ciddi məsələ olduğunu başa düşmək istəmirlər. Həmçinin bu pandemiya bəlası xalqımızın, genofondumuzun sağlamlığı və dövlətimizin milli təhlükəsizliyi məsələsidir. Olar üçün vətən, xalq, dövlət anlayışı yoxdur. Özünü müxalifət adlandıran bu radikal ünsürlərdən ibarət “milli şura” rəhbərləri iddia edirlər ki, guya Azərbaycan hökuməti koronavirus infeksiyasının ölkəmizdə geniş yayılmasının qarşısının alınması məqsədi ilə tətbiq edilən ciddi karantin rejimindən siyasi rəqiblərinə qarşı istifadə edir. Dövlətin vətəndaşlarının sağlamlığını qoruması üçün atığı addımların onlar tərəfindən bu cür dəyərləndirilməsi olduqca absurd, gülünc və bir o qədər də qərəzli iddialardır”.

İ.Məmmədov bildirib ki, belə ağır günlərdə absurd iddialarla, dezinformasiya yaymaq radikalları xalqın gözündən daha da salır: “Azərbaycan xalqının tarixin qaranlıq səhifələrinə çoxdan atdığı belə radikal ünsürləri necə dövlətimizə rəqib hesab etmək olar? Sadəcə, artıq güclü və qüdrətli, hüququn, aliliyinin, vətəndaş-iqtidar birliyinin, ümummilli həmrəyliyin yarandığı Azərbaycanımıza bundan sonra kiminsə əl uzadaraq qarışdırmasına xalq özü imkan verməz. Bu gün Azərbaycan dövlətinin, onun Prezidentinin yalnız bir qayğısı var ki, o da bəşəriyyətə müharibə elan etmiş COVID-19 pandemiyası ilə mübarizədə xalqımızı və dövlətimizi az itki ilə çıxarmaqdır. Prezident xalqının dəstəyi ilə bu çətin işin öhdəsindən də gələcək və dövlətimiz hazırki ağır situasiyadan üzü ağ çıxacaq. Bu mübarizədə yeganə silahımız isə həmrəyliyimiz və birliyimizdir. Həmin radikal ünsürlər unutmasın ki, bu gün aparılan hüquqi-siyasi və iqtisadi islahatlar dövlətimizi, xalqımızı gücləndirir və bu islahatlar davam edəcək. Daha güclü və qüdrətli Azərbaycan naminə xalqımız daima dövləti və Prezidenti ilə həmrəy olacaq!”.

# Cəzamızın çəkilməmiş hissəsindən azad edilməyimiz bizi, ailələrimizi çox sevindirdi



Prezident İlham Əliyevin əfv Sərəncamı ilə cəzamızın çəkilməmiş hissəsindən azad edilməyimiz bizi, ailələrimizi çox sevindirdi. AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə cəzasının çəkilməmiş hissəsindən azad edilən Qədəm Tarverdiyeva bildirib.

“Prezidentimiz yaşımıza görə bizi bağışladı, ailələrimizə qovuşdurdu. Bir ana kimi, nənə kimi mənə bu xoşbəxtliyi, bu sevinci bəxş etdiyi üçün ona təşəkkürümü bildirirəm. Allahdan ona cansağlığı arzu edirəm. Bu humanist addımdan düzgün nəticə çıxaracağam, dövlətimizin qanunlarına əməl edəcəyəm. Bundan sonrakı həyatımda övladlarımı, nəvələrimi başıma yığıb öz işlərimlə məşğul olacağam” , - deyə o əlavə edib.



# Ağdaban soyqırımından 28 il ötür

***Bu gün - aprel ayının 8-i tariximizə yazılmış daha bir Qarabağ savaşının ən dəhşətli faciələrindən biri olan Ağdaban soyqırımından 28 il ötür. 1992-ci ilin aprelin 8-də baş verən Ağdaban soyqırımı tarixdə bəşəriyyətə qarşı törədilmiş ən böyük cinayətlərdən biridir. Azərbaycanın gözəl guşəsi Qarabağın qala qapısı Kəlbəcəri ələ keçirmək üçün erməni separatçılarının "böyük Ermənistan" yaratmaq xülyasıyla Azərbaycan xalqına qarşı törətdiyi dəhşətli soyqırımdır. Ağdaban soyqırımı zamanı bütöv bir kənd tamamilə yandırılmış, yüzlərlə dinc sakinə qeyri-insani işgəncələr verilmiş və yurdundan didərgin salınmışdır.***

Aprel ayının 8-də səhərə yaxın erməni quldurları Ağdaban yalında keşik çəkən 3 nəfəri qətlə yetiriblər. Onlar kəndin üst yanındakı bənd-bərələrə dolub, səhər saat 6-da silahlarla nərilti qoparmağa başlayıblar. Qəfil yuxudan oyanan kənd camaatı özünü itirib. Erməni qarətçiləri planlı surətdə hərəkət ediblər. Belə bir vəziyyətdə aprelin 8-də Ağdərə rayonunun Capar kəndi istiqamətindən Dədə Şəmşirin kəndi Çayqovuşan və Ağdaban kəndlərinə erməni quzğunları hücum ediblər. Erməni quldurları tərəfindən kənd sakinləri amansızcasına öldürülüb, evlərinin əksəriyyəti yandırılıb və qarət edilib. Aşıq Şəmşirin evi və zəngin arxivi od vurularaq, külə döndərilib. Ağdaban faciəsi Kəlbəcərin qəm dastanının ən kədərli səhifəsini açıb.

Faciə zamanı 130 evdən ibarət Ağdaban kəndi tamamilə erməni separatçıları tərəfindən yandırılmış, kəndin 779 nəfər dinc sakinə qeyri-insani işgəncələr verilmişdir. 67 nəfər qətlə yetirilmiş, 8 nəfər 90-100 yaşlı qoca, 2 nəfər azyaşlı uşaq, 7 nəfər qadın diri-diri odda yandırılmış, 2 nəfər itkin düşmüş, 12 nəfərə ağır bədən xəsarəti yetirilmişdir.






İstər hərb qanunlarına, istərsə də bütün dünyada qəbul olunmuş insan hüquq və azadlıqlarına sığmayacaq səviyyədə soyqırımına "imza atan" erməni qəsbkarları qırğın zamanı Kəlbəcər rayonunun bu dilbər guşəsində, eyni zamanda, bütün tarixi abidələri, qaynaqları da məhv ediblər.

Ağdaban qırğınının səhəri günü - aprel ayının 9-da camaat hər yerdən gəlib rayon mərkəzinə toplaşıb. Xalqın iradəsilə Kəlbəcərin müdafiəsi üçün fövqəladə yardım komitəsi" yaradılıb. Komitə qısa müddət ərzində, böyük tədbirlər həyata keçirib. Orduya kömək xeyli artırılıb. Əhalidə müdafiə olunacağına ümid yaranıb. Rayon əhalisinin ciddi təkidi ilə Kəlbəcərə göndərilən polkovnik Zaur Rzayev briqada komandiri və hərbi komendant təyin edilib. Bu tədbirlər camaatın qırılmaqda olan inamını xeyli möhkəmləndirib.

Ermənistan Respublikası "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyasının və "Mədəni Sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyasının müddəalarını kobudcasına pozaraq, Azərbaycanın mədəni sərvətlərini talamışdır. Onu da qeyd edək ki, 1993-cü il mart ayının 27-də erməni fitnəkarları yenə də Kəlbəcərə hücumu Ağdabandan başlayıb. Ermənilər Ağdaban kəndinə hücum edib və onu ikinci dəfə dağıdıblar.

Bu gün Dağlıq Qarabağın və ətrafındakı rayonların işğaldan azad olunması istiqamətində mütəmadi addımlar atılır. Ölkə Prezidenti İlham Əliyev torpaqlarımızın işğaldan azad olunması istiqamətində qətiyyətli siyasət yürüdür. Ermənistanın işğalçı siyasəti nəticəsində, ev-eşiyindən didərgin düşən qaçqın və məcburi köçkünlərin sosial rifahının yaxşılaşdırılması, onların yaşayış səviyyəsinin normallaşdırılması istiqamətində də məqsədyönlü fəaliyyət nümayiş olunur. Artıq çadır şəhərcikləri ləğv olunub və yeni qəsəbələr salınıb və bu davam etməkdədir. Öz yurd-yuvalarından didərgin düşən işsanlar Azərbaycan dövlətinin problemlərin öhdəsindən gələcəyinə, o cümlədən, yaxın zamanda torpaqlarımızın işğaldan azad olunacağına inanır və öz yurd-yuvalarına qovuşacaqları günü səbrsizliklə gözləyirlər. Cənab Prezident çıxışlarında dəfələrlə vurğulayıb ki, Azərbaycan öz prinsipial mövqeyindən geri çəkilməyəcək və ölkəmizin ərazi bütövlüyünün bərpası bizim üçün əsas məsələdir. Məlumdur ki, müasir dünyada Ermənistan bütün beynəlxalq normaları pozaraq, Azərbaycan ərazisinin 20%-ni işğal altında saxlayır. Bu gün 1 milyondan artıq azərbaycanlı torpaqlarından didərgin salınaraq, qaçqın və məcburi köçkünə çevrilib. Ermənistanın işğalçılıq siyasəti nəticəsində, 30 mindən artıq Azərbaycan vətəndaşı qətlə yetirilib, çoxlu sayda insan əsir və girov götürülüb. BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq təşkilatlar Ermənistanın işğal faktını təsdiqləyiblər. Mövcud duruma son qoyulması və qaçqınların öz torpaqlarına qayıtmalarını tələb edən çoxsaylı qərar və qətnamə qəbul edilsə də, işğaçı dövlət buna əməl etmir.

Ölkəmizin son illərdə dinamik inkişafı, silahlı qüvvələrin büdcəsinin artması və nəticə etibarilə, ordumuzun güclənməsi ilə müşayiət olunur. Qafqazda ən müasir ordu hesab olunan Azərbaycan Milli Ordusu, Hərbi-Hava Qüvvələri və Hava Hücumundan Müdafiə sistemi, Hərbi-Dəniz Donanması və Quru Qoşunlarından ibarətdir. Peşəkarlıqla yanaşı, ordunun maddi-texniki bazası da möhkəmlənib. Bu istiqamətdə, son illər ərzində, böyük işlər görülüb. Azərbaycan iqtisadiyyatının yüksəlişi, bütün sahələrdə olduğu kimi, ölkənin hərbi qüdrətinin də artmasında müsbət təsirini göstərib.

Son illərdə Azərbaycanda müasir və çox güclü Hərbi-Sənaye Kompleksi yaradılıb. Azərbaycan Silahlı Qüvvələri bu gün müasir texnika ilə təchiz edilib və bunun nəticəsi olaraq, Vətənin müdafiəsinə daim hazır olan yüksək nizam-intizama malik ordumuz var. "Bu gün beynəlxalq reytinqlərə görə, Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Ordumuz üçün nə lazımdırsa, biz onu da edirik. Ordumuzun maddi-texniki bazası möhkəmlənir", - deyən Azərbaycan Prezidenti, yoxsul Ermənistandan fərqli olaraq, ölkəmizin öz hesabımıza yaşadığını, o cümlədən, hərbi gücümüzü öz hesabımıza artırdığımızı bildirib: "Ona görə Azərbaycan ictimaiyyəti və düşmən bilməlidir ki, Azərbaycan Ordusu bundan sonra da güclənəcək və istənilən tapşırığı yerinə yetirməyə hazırdır. Yaxın tarix bunu göstərmişdir".

Göründüyü kimi, müstəqil dövlətimizin sürətli və ardıcıl inkişafına təkan verən bütün amillər böyük uzaqgörənliklə hazırlanmış inkişaf strategiyasının uğurlu tətbiqinin nəticəsidir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğu siyasəti yaxın gələcəkdə üçrəngli bayrağımızın Qarabağda dalğalanacağından xəbər verir.

***Zümrüd BAYRAMOVA***

# Niyə və nə üçün..?

*Yaxud, məsuliyyət məsuliyyətsizliyə qalib gəlməlidir!*




***Dünyada cərəyan edən "COVID-19" adlandırılan ölümcül virus bəşər övladına kifayət qədər ciddi təhlükələr yaırmaqdadır. Biz hələ ötən ilin sonlarında - virusun yayılma ocağı sayılan Çində baş verənləri təlaşla izləyərək, onun nə qədər təhlükəli olduğunu deyir, müxtəlif versiyalar səsləndirirdik. Hətta çinlilərin ənənəvi qida rasionlarını da ortaya ataraq, koronavirusun əmələgəlmə səbəbini bilavasitə bu faktorla əlqələndirirdik. Lakin düşünmək istəmirdik ki, Çindən start götürən virus qısa zamanda yer üzünün bütün qitələrinə yayılıb, insanları təhdidi altında saxlayacaq. Bu, baş verdi və...***

### Məhz Çində bu məhdudiyyətlərin tətbiqi artan rəqəmlərin azalmasına səbəb oldu...

Artıq dünyada bu yoluxucu xəstəlikdən minlərlə həyatını itirənlər, yüz minlərlə virus daşıyıcıları mövcuddur. Çinin Uhan əyalətində və ətraflarda başlatdığı xüsusi karantin, insanların həyatlarının qorunması üçün görülən tədbirlər, kütləvi dezinfeksiya işləri uzun müddət sürdü. Buna baxmayaraq, çoxsaylı tələfatlar davam etdi, ancaq sonda bu saylar azalmağa, rəqəmlər kiçilməyə başladı. Bəs belə bir nəticənin əldə edilməsində daha hansı amilləri axtara bilərik? Sözsüz ki, burada xüsusi karantin rejimində daha çox təkid edilən evdə qalmaq, tez-tez dezinfeksiya tədbirlərinə riayət etmək, insanlarla sıx təmasdan yayınmaq və s. kimi tələblər mövcuddur və bu tələblərin icra olunması özəl məsuliyyətdən qaynaqlanmalıdır. İnsanlar məhdudiyyətlərə əməl etməklə, öz ailələrini, yaxınlarını da koronavirusa yoluxmaq təhlükəsindən qoruya bilərlər. Məhz Çində bu məhdudiyyətlərin tətbiqi artan rəqəmlərin azalmasına səbəb oldu.

### Pandemiyanın epidemioloji vüsəti necə deyərlər, öz işindədir

Virus Avropa ölkələrinə və bütövlükdə dünyaya yayılandan sonra insanların əksər çoxluğu təəssüf ki, həmin adi tələblərə riayət etmək istəmədilər. Biz bu gün İtaliyada, İspaniyada, Almaniyada, Niderlandda, İsveçdə, Fransada, Böyük Britaniyada və başqa ölkələrdə kütləvi yoluxma və ölüm hadisələrinin şahidlərinə çevrilməkdəyik. Dövlətlər öz üzərlərinə düşən vəzifələri icra edir - sərhədlər bağlanır, gömrük məntəqələrində sərt tədbirlər həyata keçirilir, kütləvi toplantı yerləri fəaliyyətlərini dayandırır və s. Amma insanlar hələ də üzərlərinə düşən öhdəliyi ya anlamır, ya da "məndən yan keçəcək" tipli utopiya ilə hadisələrə barmaqrarası baxırlar. Nə səhiyyənin tələb etdiyi qaydalara əməl olunur, nə də ətrafdakı insanların taleləri kimsəni maraqlandırmır! Bu təəssüfedici reallıq isə hər gün dünya üzrə minlərlə insanları ölümün ağuşuna doğru sürükləyir. Pandemiyanın epidemioloji vüsəti necə deyərlər, öz işindədir.

### Nəticələr göz önündədir və gizlətməyə də ehtiyac yoxdur...

Əfsuslar olsun ki, bu gün virusla mübarizədə əsas güc mənbəyi olan tibb işçiləri belə həyatlarını itirirlər. Ümumiyyətlə, arzuolunmaz hadisələrin hər birinin kökündə dayanan üzücü gerçəklik insanların məsuliyyətsizliyi və təhlükənin reallığını dərk etməmələridir. Daha dəqiq desək, insanlar təhlükənin real olduğunu başa düşmür və məsuliyyətsiz davranmağa davam edəcəkləri təqdirdə hansı acınacaqlı nəticələrlə rastlaşa biləcəklərini təsəvvür etmək istəmirlər. Halbuki, nəticələr göz önündədir və gizlətməyə də ehtiyac yoxdur.

Fəqət, elə kateqoriyalı insanlar da var ki, onların bəziləri infeksiyanın olmadığı iddia edir və ya deyilənlərin obyektivliyini şübhə altına almağa çalışırlar. Əslində, belə bir mövqenin sərgilənməsi cinayətdir. Məsuliyyətsizlik cinayəti olmaqla yanaşı, həm də başqa insanların həyatları ilə oyun oynamaqdır. Bu günlərdə İtaliyanın ictimai xadimlərinin videorolikinə yəqin ki, çoxları baxıb. Onlar qəzəbli şəkildə insanları qınayır, hətta küçələrdə piknik edənləri evlərinə qovur, onları zorla qapalı məkanlara getməyə məcbur edirlər. Təbii ki, adi vaxtlarda belə bir addımların atılması doğru olmazdı, ancaq görün vəziyyət nə qədər çərçivədən çıxıb və məsuliyyətsizlik necə yayılıb ki, rəsmi şəxslərin mövcud addım atmaqdan başqa çıxış yolları da qalmayıb.

### Amma bütün bunları qulaq ardına vururlar!

Bir daha təəssüflə etiraf etməliyik ki, bənzər məsələlər bizdə də yaşanır - məktəblərin bağlanmasını bayram kimi qəbil edib uşaqları ilə qonaq gedənlər, küçələrdə kütlə şəklində gəzənlər və yaxına-uzağa səfərlər edənlər var... Belə məsuliyyətsizliyə yol verən fərdlər başa düşmək istəmirlər ki, ilk növbədə ən qiymətli varlıqların - uşaqların həyatı ilə oynayırlar, eləcə də, yaşamaq haqqı olan başqa insanları da böyük təhlükə qarşısında qoyurlar. Halbuki özləri də mətbuatda, TV-lərdə günün əsas xəbərləri olan koronavirusla bağlı ayrı-ayrı ölkələrdə vəziyyəti görür, hər gün yüzlərlə insanın həyatını itirdiyi barədə məlumatları dinləyirlər. Amma bütün bunları qulaq ardına vururlar!

Ailələrin, körpə uşaqların, qohum və tanışların həyatlarını riskə atmamaq üçün - evdə qal!

Bu gün Azərbaycan dövləti və rəhbərliyi maksimum gücünü ortaya qoymaqla, bütün müvafiq öncləyici tədbirləri görür, virusun yayılmasının qarşısının alınması üçün ən vacib qərarları verir. Artıq bir neçə gündür ki, ölkə ərazisində xüsusi karantin rejiminə keçilib. Burada ən ali məqsəd, vətəndaşları qorumaqdır. Ancaq vətəndaşlar da başa düşməlidirlər ki, dövlət nə qədər çox iş görsə də, öz vətəndaşını qorumağa çalışsa da, vətəndaş özü özünü qorumasa, məsuliyyətli olmasa, deyilənləri ciddi qəbul edib çağırışlara, qaydalara riayət etməsə, hər gün özünü, ailəsini, uşaqlarını, qonşularını və ümumiyyətlə cəmiyyəti ciddi təhlükə qarşısında qoymuş olacaq. Yəni bu gün ən vacib olan, yoluxmamağa zəmanət verən və xəstəliyin acı nəticələrindən müdafiə edən yeganə vasitə evdə oturmaq, infeksiyaya yoluxmamaq və digərlərini yoluxdurmanaqdır. Əbəs deyil ki, artıq bütün dünyada, o cümlədən ölkəmizdə #evdəqal həştəqi ilə geniş miqyaslı kampaniya aparılır. Qalır sadəcə, bu tələbə riayət etmək - ailələrin, körpə uşaqların, qohum və tanışların həyatlarını riskə atmamaq üçün. Bir sözlə, məsuliyyət məsuliyyətsizliyə qalib gəlməlidir!

**R.NURƏDDİNOĞLU**

# Kimlər və niyə əfv sərəncamından narahatdırlar?

*Yaxud Əli Kərimli, Arif Hacılı, Gültəkin Hacıbəyli və s. kimi cəmiyyətə təhlükəli olanlar öz aqibətlərini düşünsünlər*



***Ölkədə humanizm prinsiplərinin reallaşdırılması ənənə şəklini alıb. Burada dövlət rəhbərliyinin bilavasitə şəxsi iradəsi, əsasən də insan amilinə yüksək qiymət verməsi, onu dəyərləndirməsi faktoru dayanmaqdadır. Zaman-zaman, xüsusilə əlamətdar günlərdə imzalanan əfv sərəncamları yalnız azadlığa çıxanları deyil, onlara görə narahat olan ailələrinə də sevinc bəxş edir.***

Bu dəfə imzalanan sərəncam humanizmin daha bir tərəfini nümayiş etdirdi - yaşları 65 və daha yuxarı olanların koronavirus təhlükəsi səbəbindən azadlığa buraxılmaları həm də onların həyati təhlükələrinin qarşısını almağa yönələn addım olaraq qiymətləndirilir. Çünki bildiyimiz kimi, koronavirus infeksiyasının məhz yaşlı insanları daha tez yoluxması faktı təsdiq edilib. Bu baxımdan, onların əfvə düşərək, həmin təhlükədən maksimum şəkildə qorunmaları da bu anlamı daşımaqdadır. Habelə, A.Çovdarovun ürək xəstəsi olması da bəllidir və bu amil onun azadlığa buraxılması üçün vasitə olmaqla yanaşı, həm də törətdiyi cinayətin ağırlıq dərəcəsi də onun azadlığa buraxılmasına mane olmur. Ümumiyyətlə nə o, nə də S.Qurbanov artıq cəmiyyət üçün təhlükə mənbəyi deyillər.

Ancaq göründüyü kimi, indi də bu humanist addımı öz təbirlərincə siyasiləşdirən dağıdıcı müxalifət ünsürləri dərhal sosial şəbəkələrdə A.Çovdarovun, yaxud S.Qurbanovun nəyə görə azadlığa buraxılmaları ətrafında dırnaqarası, öz çirkin məqsədlərinə yönəlmiş fərziyyələr irəli sürməkdədirlər. Bunun da bir ucunu necə deyərlər, aparıb-bağlayırlar "siyasi məhbus" adlandırdıqları radikallara. Məsələn sözün əsl mənasında qanqsterlik edən Tofiq Yaqubluya və ictimai asayişi, qanunları pozanlar və s... Halbuki, yaşları 65-dən yuxarı olan və azadlığa buraxılan insanlar yalnız bu iki şəxsdən ibarət deyil. Onların arasında digər insanlar da var.

Göründüyü kimi, Əli Kərimli, Arif Hacılı, Gültəkin Hacıbəyli, Eldəniz Quliyev, Vidadi Mirkamal və onların trolları dərhal məsələni siyasi müstəviyə keçirib, bu humanizm addımını kölgədə qoymağa cəhd göstərirlər. Məqsəd isə bəllidir, növbəti sifariş!

Əslində beləlri anlamalıdırlar ki, cəmiyyət üçün hərəsinin öz təhlükələri var. Hətta T.Yaqublu hələ bunların yanında necə deyərlər toyagetməlidir. Ə.Kərimli və başqaları isə açıq-aşkar düşmən mövqeyində dayanırlar və əslində xalqa, cəmiyyətə daha çox təhlükə yaradırlar. Dövlətçilik maraqlarımıza zərbə vurmaq cəhdləri buna sübutdur. Bu baxımdan, yaxşı olardı ki, laf-luf cəhdləri ilə sosial şəbəkələrdə var-gəl etməkdənsə, öz təhlükələri barədə düşünsünlər.

**Rövşən RƏSULOV**

***P.S. Yeri gəlmişkən, bu məsələdə V.Mirkamal daha çox özünü dağa-daşa çırpır. Halbuki, onun özü cəmiyyətə nə qədər təhlükəli olduğunu unudur. Ailəli bir xanımı toruna salıb, bütöv bir ailəni dağıdandan zatən başqa hər hansı insanlıq addımını gözləməyə də dəyməz. Cəmiyyətə də ən çox təhlükəli olanlar məhz onun özü və onun kimi radikal tör-töküntülərdir!***



# Piyadanı vurub hadisə yerindən qaçan avtobus sürücüsü saxlanılıb

Aprelin 6-da saat 20 radələrində Xətai rayonunun Zığ Yolu küçəsində yolu keçən Bakı şəhər sakini G.Eminova naməlum avtomobillə vurulub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hadisə nəticəsində xəsarət alan piyada xəstəxanaya yerləşdirilib.

Yol qəzasını törədərək hadisə yerindən yayınmış "İsuzu" markalı xətt avtobusunun sürücüsü, paytaxt sakini E.Məstiyev Xətai Rayon Polis İdarəsinin 36-cı polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb. Hadisə ilə bağlı Xətai Rayon Polis İdarəsi tərəfindən araşdırma aparılır.

# Koronavirusdan bəşəriyyətin sağlamlıq hüququnun qorunmasına Azərbaycanın töhfəsi

***Son zamanlaradək elm üçün naməlum qalan virus kəskin ağciyər xəstəliklərinə səbəb olur. "COVİD-19" adı verilən koronavirus artıq Azərbaycan da daxil olmaqla, 200-dən çox ölkə və ərazidə yayılıb.***

Hazırda dünya boyunca, virusun yayıldığı Çin də daxil 1,4 milyona yaxın insan koronavirusa yoluxub. Ölənlərin sayı 70 mini keçib, sağalanların sayı isə 100 min nəfərdən çoxdur.

Bu xəstəlik nədir və özünüzü necə qoruya bilərsiniz?

Koronavirusun simptomları nədir?

Qızdırma ilə başlayan xəstəlik daha sonra quru öskürəklə müşayiət olunur. Bundan bir həftə sonra təngnəfəslik əmələ gəlir və bəzi hallarda xəstələrin xəstəxanaya aparılmasına ehtiyac yarana bilər. Bu simptomların sizdə olması sizin koronavirusa tutulduğunuz anlamına gəlmir. Çünki, soyuqdəymə və qripin də simptomları belədir. Xəstəliyin kəskin halları sətəlcəmə, ağır kəskin tənəffüs sindromu, çoxsaylı orqan çatışmazlığı və hətta ölümə də səbəb ola bilər. Yaşlı insanlar və ya əvvəllər astma, diabet, ürək xəstəlikləri olmuş insanlar xəstəliyi daha ağır keçirə bilər. İnfeksiyanı tutmaq və simptomların özünü göstərməsi arasındakı zaman - inkubasiya dövrü 14 gün çəkə bilər. Bunu Dünya Səhiyyə Təşkilatı (WHO, ÜST) deyir. Bəzi araşdırmaçılar bu dövrün 24 günədək davam edə biləcəyini qeyd edir. Əlləri mütəmadi olaraq yaxşıca yumaq virusa yoluxmamaq yolunda ilk addımdır. Koronavirusun insandan-insana necə yayılması hələ aydın deyil. Lakin oxşar viruslar hava-damcı yolu ilə keçir. Odur ki, asqırma zamanı ağız-burunu dəsmalla tutmaq, əlləri yumadan üzgözə vurmamaq və xəstə insanlarla yaxın əlaqədə olmamaq önəmlidir.

Özündə respirator xəstəlik əlamətləri hiss edən şəxslər təcili yardıma müraciət etməlidirlər. Koronavirusa görə yoxlanmaq istəyənlərə "ən yaxın klinika" yox, təcili yardım xidmət göstərir. Bunun üçün 103 (Bakı daxili) və ya 113 (Bakıdan kənar) təcili yardım nömrələrinə zəng etmək lazımdır. Hazırda xəstəliyin geniş yayıldığı bölgələrdən gələnlər və ya onlarla təmasda olanlar, eləcə də, xəstəliyi təsdiq olunmuş şəxslə təmasda olanlar analiz verməlidir Dünyaboyu hər gün xəstələnənlərin sayı artır. Mütəxəssislər isə hesab edir ki, xəstələrin sayı rəsmi rəqəmlərdən xeyli artıqdır. Xəstəliyin episentri Çinin Uhan şəhərində yerləşir. Lakin artıq dünyanın 200 ölkə və ərazisində bu xəstəliyin olması təsdiqlənib. Xəstəliyin yayıldığı ilk günlərdə yoluxanların demək olar ki, hamısı Uhana səfər edənlər idi. İstisnanı Tailandda baş verən bir yoluxma halı təşkil edir. Burada yoluxmanın mənbəyi heyvan olub. ÜST-ün 56 min pasiyent arasında apardığı sorğu nəticəsində aydın olub ki, yoluxanların hər beş nəfərindən dördündə simptomlar mülayim olur. Daha dəqiq, yoluxanların 80 faizində simptomlar yüngül, 14 faizində kəskin, 6 faizində isə kritik olub. Xəstəlikdən ölənlər 1-2 faiz təşkil edib, lakin bu məlumatlar dəqiq deyil. Bunu qriplə müqayisə etsək, hər il bu xəstəlik 290 000-650 000 ölümə səbəb olur. Eynilə, hər il qripin kəskinliyi də artır. Hazırda müalicə çox sadə məsələyə - nəfəs sisteminə dəstək verməyə əsaslanır.

Hazırda vaksin hazırlanması üzərində iş gedir və cari ilin sonunadək onun hazır olacağı güman edilir. Xəstəxanalar müalicə üçün təsirini yoxlamaq üçün anti-viral dərmanlardan da istifadə edir. Virusa qarşı vaksin yoxdur, buna görə də onu dayandırmağın yeganə yolu erkən diaqnoz və xəstələrin təcrid olunmuş vəziyyətdə müalicəsidir. Xəstələrlə təmasda olan insanları nəzarət altında saxlayıb, onların daima monitorinqini aparmaq yeni yoluxma hallarının qarşısını ala bilər. Koronaviruslar geniş virus qrupuna mənsub olsa da, onların yalnız altı növü (yenisi sayca yeddinci olacaq) insandan insana ötürülə bilər. Yeni virusların ortaya çıxması mütəmadi prosesdir. Bəzi hallarda bir müddət gözə dəyməyən virus heyvanlardan insana ötürülə bilər. "Keçmişdə ortaya çıxan xəstəliklərin yayılmasına nəzər salsaq, yeni koronavirusun heyvanlardan (insana) keçməsini görərik", - Nottingham Universitetinin virusoloqu professor Jonathan Ball deyir. Yarasalarda başlayan Şiddətli Kəskin Respirator Sindromu (SARS) palma pişiklərinə - onlardan isə insanlara keçdi. 2002-ci ildə SARS 774 nəfərin ölümünə bais olmuşdu.

"SARS yaddaşlarda dərin iz buraxıb və indiki qorxuların çoxu da məhz buradan irəli gəlir. Amma biz belə xəstəlik növləri ilə mübarizə aparmağa daha çox hazırıq", - Wellcome Trust-dan doktor Josie Golding deyir.

* Öskürəndə və ya asqıranda otaqdan çıxmaq lazımdırmı?

* Azərbaycanda H3N2 virusu: qrip nə qədər təhlükəlidir?

2012-ci ildə Yaxın Şərq tənəffüs sindromu (MERS) baş qaldırdı. O vaxtdan bəri bu xəstəliyə düçar olan 2,494 xəstədən 858-i vəfat edib.

Lakin müntəzəm olaraq birhürgüclü dəvələrdən keçən yoluxma halları qeydə alınır. Heyvanların saxlanıldığı yer (virusun yayılmağa başladığı ilk məkan) aşkar edildikdən sonra problemin həlli xeyli asanlaşır. Koronavirus hadisələri Uhandakı cənubi Çin dəniz məhsullarının topdansatış bazarı ilə əlaqələndirilir. Bəzi dəniz məməliləri (Ağ balina kimi) koronavirus daşıyıcısı ola bilər. Böyük bir ehtimalla virusun daşıyıcısı bu bazarda satılan toyuq, yarasa, dovşan və ya ilan kimi vəhşi canlılardan biri olub. Virusların mütəmadi olaraq dəyişib inkişaf edəcəyini gözləmək olar. Ancaq bunun mümkün nəticələrini izah etmək daha çətindir. Yeni koronavirus bir canlıdan digərinə ötürülür. Mutasiya nəticəsində onun insandan insana keçməsi asanlaşa bilər. Həmçinin, xəstəliyin simptomları da kəskinləşə bilər. Bunlar alimlərin diqqət mərkəzində qalan məsələlərdir. Virusun yayılması üçün Çində daha əlverişli şərait mövcuddur: buraya əhalinin sayı, sıxlığı və virusları daşıyan heyvanlarla insanların sıx təmasını aid etmək olar. Sağlam ətraf mühitdə yaşamaq hüququ insan hüquqları içərisində üçüncü nəsil kollektiv hüquqlar sırasına daxildir, yəni bu hüquq həm fərdi, həm də kollektiv hüquqdur. Fərdi hüquq kimi bu, hər bir kəsə məxsusdur. Kollektiv hüquq kimi isə bütün insanlara aiddir. Azərbaycan Respublikası Konstitusiyasının "Əsas insan və vətəndaş hüquqları və azadlıqları" adlanan III fəslində 39-cu maddədə əks olunmuşdur:

I Hər bir kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ vardır.

II Hər kəsin ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq və ekoloji hüquqpozma ilə əlaqədar onun sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq hüququ vardır.

Bundan başqa Konstitusiyanın 78-ci maddəsində belə bir müddəa vardır: "Ətraf mühitin qorunması hər şəxsin borcudur." Hər bir insan fəaliyyət prosesində bu və ya digər formada ətraf mühitlə təmasda olur. Hər bir kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ ilə paralel, ətraf mühiti qorumaq vəzifəsi vardır. Ətraf mühiti qorumaq və ona qayğı ilə yanaşmaq hər bir kəsin mənəvi borcudur. Sağlam ətraf mühitdə yaşamaq hüququ insanın fundamental hüququdur. İnsanın sağlam ətraf mühitdə yaşamaq hüququ ilk dəfə 1972-ci ildə BMT-nin "Ətraf Mühitə dair" Stokholm konfransında geniş müzakirə olunmuşdur. Konfransa hazırlıq mərhələsində hökumətlərarası işçi qrupu tərəfindən "İnsanı əhatə edən ətraf mühit haqqında" bəyannamənin birinci layihəsində aşağıdakı müddəanın verilməsi təklif edilmişdir: "Yaşamaq hüququ da daxil olmaqla insanın əsas hüquqlarından olan təhlükəsiz və sağlam ətraf mühitdə yaşamaq hüququ" var.

İnsan hüquqları sırasında ən öndə duran hüquq yaşamaq hüququdur. Bu hüquq universaldır və icbaridir. Onsuz başqa hüquqların mənası yoxdur, yəni yaşamaq hüququ yoxdursa, onda heç bir hüquq mövcud ola bilməz. Amma qanunvericilikdə nəzərdə tutulmuş bəzi hallarda, beynəlxalq hüquqda müharibə dövründə düşmən əsgərin öldürülməsini, yəni yaşamaqdan məhrumetməni məqbul sayırlar, digər hallarda isə yaşamaq hüququ ən dəyərli hüquqdur.Bu hüquq ətraf mühitlə sıx bağlıdır. Yəni insan öz yaşamaq hüququnu sağlam şəkildə ətraf mühitdə həyata keçirir. Hər bir insan sağlam ətraf mühitdə yaşamaq istəyir, bu, təbiidir. Yəni müasir dövrdə sağlamlıq və yaşamaq hüququ bir-birilə sıx əlaqədədir, bu, dəqiqdir, onun dəyişimə ehtiyacı yoxdur.




Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli 1950 nömrəli Sərəncamının 10.2-ci bəndinin icrası ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi barədə Baş nazir sərəncam imzalayıb.Sərəncama əsasən iqtisadi artıma və sahibkarlığa dəstək istiqamətində pandemiyadan zərər çəkmiş sahələrdə çalışan 300 min muzdlu işçinin əməkhaqqının müəyyən hissəsinin ödənilməsi üçün 215 milyon manat vəsait ayrılıb. Orta hesabla bir muzdlu iş yerinin qorunması üçün 717 manat xərclənəcək. Pandemiyadan zərər çəkən 300 min fərdi (mikro) sahibkara da 80 milyon manat dəstək nəzərdə tutulur. Pandemiyadan zərər çəkən sahibkarlara vergi güzəştlərinin və tətillərinin ümumi məbləği 115 milyon manat təşkil edir. Buraya əmlak və torpaq vergisindən müddətli azadolmaların verilməsi, mənfəət (gəlir) vergisi və sadələşdirilmiş vergi üzrə müddətli güzəştlərin verilməsi, sosial sığorta yükünün azaldılması, əhalinin ərzaq və tibbi ehtiyacları üçün zəruri olan bəzi məhsul növlərinin idxalının ƏDV-dən müddətli azad edilməsi və s. daxildir.

500 milyon manat həcmində yeni kreditlərin 60%-nə dövlət zəmanəti veriləcək, faiz dərəcəsinin yarısını isə dövlət subsidiyalaşdıracaq. Aqrar sektorda girovsuz mikrokreditlərin verilməsi üzrə mexanizm yaradılacaq. Pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarların 2020-ci il 10 mart tarixinə 1 milyard manat həcmində mövcud kreditlərinin faiz dərəcəsinin bir il üzrə 10%-i subsidiyalaşdırılacaq. Güzəştli ipoteka kreditləri üçün ayrılan vəsaitlərin həcmi 90 milyon manat artırılacaq".

Həyati vacib sərnişindaşıma sahəsinə 280 milyon manat maliyyə dəstəyi veriləcək. Məşğulluq və sosial rifaha dəstək istiqamətində əsas məqsədlərdən biri dövlət və qeyri-dövlət sektorlarında 1 milyon 574 min işçinin əsassız yerə işdən çıxarılması və ixtisarına yol verilməməsi, həmçinin məzuniyyətə buraxılan işçilərin əməkhaqlarının saxlanmasıdır.

50 min haqqı ödənilən ictimai iş yerinin yaradılması vasitəsilə işsiz şəxslərin müvəqqəti məşğulluğu təmin ediləcək və işsiz kimi qeydiyyata alınan 200 min nəfərə iki ay ərzində 190 manat birdəfəlik ödəmə veriləcək. Özünüməşğulluq proqramı 11 min nəfəri əhatə edəcək və işsizlikdən sığorta ödənişlərinin əhatə dairəsinə 20 min nəfər düşəcək. Əhaliyə güzəştli işıq limitinin aprel-may aylarında 100 kvts. həcmində artırılmasına 10 milyon manat ayrılıb. Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi üçün 40 milyon manat nəzərdə tutulub. Sonuncu istiqamət makroiqtisadi və maliyyə sabitliyi adlanır. İri maliyyə tutumu olan tədbirlər planını həyata keçirmək üçün yeni makroiqtisadi çərçivə hazırlanmalıdır. Fiskal siyasətdə ediləcək dəyişikliklərə uyğun olaraq monetar siyasətin qarşısında yeni vəzifələr dayanır. Mərkəzi Bank zərər çəkən sahibkarların öhdəliklərinin tənzimlənməsi məqsədilə banklara requlyativ tətil verəcək. Ölkənin maliyyə-bank sektorunda sabitliyin qorunması təmin ediləcək. Bütövlükdə, Tədbirlər Planının qarşısında əsas vəzifə əhalini və sahibkarları pandemiyanın mənfi təsirlərindən qorumaq, iqtisadiyyatın funksionallığını saxlamaq və post-pandemiya dövründə yeni iqtisadi artım modelini tətbiq etməkdir. Tədbirlər Planı çərçivəsində Prezident Sərəncamı ilə ayrılan 2,5 milyard manat vəsaitdən əlavə 343,6 milyon manat da digər mənbələrdən təmin olunacaq. Digər mənbələrə İşsizlikdən Sığorta Fondu və Dövlət Sosial Müdafiə Fondunu aid etmək olar. Koronavirusla Mübarizəyə Dəstək Fonduna toplanan 110 milyon manat ianəni və Nazirlər Kabinetinə ilk olaraq təqdim edilən 10 milyon manat vəsaiti də nəzərə alanda, Azərbaycanın korona-böhranla mübarizə büdcəsi ümumilikdə 3 milyard manata, başqa sözlə, dövlət büdcəsi gəlirlərinin 12,3 faizinə və ya ÜDM-in 3,6 faizinə çatır. Bundan başqa postsovet məkanında korona-böhran səbəbindən devalvasiyaya uğramayan yeganə valyuta olan manatın sabitliyi üçün təkcə bu ilin mart ayında Dövlət Neft Fondu tərəfindən 1 milyard 928,3 milyon ABŞ dolları məbləğində vəsait satılıb. Prezident İlham Əliyevin rəhbərliyilə Azərbaycan postsovet məkanında korona-böhranla mübarizəyə ÜDM-in ən böyük hissəsini ayırmış ölkədir. Azərbaycan Respublikasında əhalinin sağlamlığının qorunması və koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 19 mart 2020-ci il tarixli Fərmanında deyilir: "Azərbaycan Respublikasında əhalinin sağlamlığının qorunması, dünya standartlarına uyğun tibbi yardımla təmin olunması ölkədə həyata keçirilən sosial-iqtisadi siyasətin prioritetlərindəndir. Son aylarda dünyada yayılan yeni növ koronavirus infeksiyasının coğrafiyasının genişlənməsi ölkəmizdə də bu xəstəliyə yoluxma hallarının qarşısının alınması məqsədilə müvafiq preventiv və profilaktik tədbirlərin gücləndirilməsini zəruri edir. Bu məqsədlə, əhalinin müxtəlif təbəqələrinin, o cümlədən sahibkarlıq subyektlərinin bu növ tədbirlərə dəstək verməsi, sosial həmrəylik nümayiş etdirməsi görülən işlərin səmərəliliyinə bilavasitə təsir edən xüsusi əhəmiyyətli məsələlərdən olmaqla, korporativ sosial məsuliyyəti, dövlət - vətəndaş birliyini əks etdirən əsas faktorların bariz göstəricisidir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

TƏRS BAXIŞ

# Belələrinə erməni çörəyi daha şirindir

*Yaxud milli həmrəylikdən qaçan milli satqınlar!*

***Sevinc Osmanqızının və onun daimi söz giriftarına çevrilmiş AXCP sədri Əli Kərimlinin yetənə yetib, yetməyənə daş atmaq şakərləri hər kəsə bəllidir. Xüsusilə, pul alıb nökərçilik etdikləri ermənipərəst təşkilatların əmrlərinə müntəzir dayanan bu kimi ürəkbulandırıcı ünsürlərin demək olar ki, günaşırı şəkildə havaya söz buraxmaları bir atalar sözünü xatırladır - milçək iyrənc deyil, könül bulandırır.***

Məsələ isə ondadır ki, koronavirus pandemiyası ilə əlaqədar Azərbaycanda karantin rejimi elan olunandan Yeni Azərbaycan Partiyası bir sıra dəstək kampaniyalarını həyata keçirməklə, insanların sağlamlıqlarının, eləcə də yaşlı nəslin nümayəndələrinin, aztəminatlı ailələrin yardımında dayanıb. Belə bir humanizm aksiyalarında gənclərin fəallıqları isə, sözün əsl mənasında ürəkləri fərəhləndirir. Ümumiyyətlə, ümummilli məsələyə çevrilən bu kimi aksiyalar eyni zamanda həmrəyliyin bariz göstəricisi olaraq qiymətləndirilməkdədir. Yüzlərlə ailələrə yardımlar edən fəallar və könüllülər əsasən, yaşları 65 və ondan yuxarı olan tənhaların, ahılların, aztəminatlı və köməyə ehtiyacı olan ailələrin xidmətindədirlər. Bu gün də həmin kampaniya uğurla davam etdirilməkdədir.

**"Millət", "dövlət" deyə bağırıb, sözün həqiqi mənasında boğazlarını ağrıdanlardan ümumiyyətlə, səs-səmir gəlmədi**

Bu barədə daha öncəki yazılarımızda qeyd etmişdik ki, ölkə başçısının çağırışından sonra, istər fərdi, istərsə də cəm şəkildə - sahibkarlar, şirkətlər, ictimai birliklər, hətta ayrı-ayrı vətəndaşlar koronavirusla mübarizə fonduna maddi yardımlarını əsirgəməyiblər. Bu, milli birliyin, həmrəylinin real göstəricisi və mövcudluğu



deməkdir. Lakin zaman-zaman "millət", "dövlət" deyə bağırıb, sözün həqiqi mənasında boğazlarını ağrıdanlardan ümumiyyətlə, səs-səmir gəlmədi. AXCP sədri Əli Kərimli, Müsavat başqanı Arif Hacılı, "REAL" partiyasının sədri İlqar Məmmədov və başqaları necə deyərlər, bircə manatlarından belə keçməyərək, dar gündə əsl "simalarını" növbəti dəfə aşkara çıxardılar. Bunun yerinə isə, utanmadan-qızarmadan dövlətin və hakim partiyanın dəstək kampaniyalarına zəhərli dillərini uzadırlar. Bu zaman sual yaranır ki, yaxşı, xalqın belə bir günündə yaxanızı çəkib-qoymusunuz bir kənara, bəs nə üçün bu məsələdə dəstək dayananlara qarşı çıxıb, siyasi həyasızlıq nümayiş etdirirsiniz? Əslində bu sualın cavabı da elə özündədir - siyasi həyasızlıq!

**Onlar xalqa xidməti təhqir etməkdə görürlər**

Başqa tərəfdən, bəs onların başçılıq etdikləri dərnəklərin gəncləri haradadırlar? Yoxsa, onlar ancaq sosial şəbəkələrdə trolluq etmək üçün lazımdır? Yaxud, onlar xalqa xidməti təhqir etməkdə görürlər? S.Osmanqızına gəlincə isə, bu gün o yenə də ABŞ-da oturub erməni çörəyi yeyir və çox yəqin ki, efirinə çıxan Ə.Kərimliyə və "Milli Şura"nın digər sələhiyyətlilərinə də bir-iki tikə həmin kafir çörəyindən yedirdir. Sonrası isə məlumdur...

Osmanqızıya gəlincə, o bir reallığı dərk etməlidir ki, YAP-ın xalq, dövlət, millət naminə həyata keçirdiyi xeyriyyə tədbirlərinə ləkə gətirmək əvəzinə, pambıq bəylərindən - cəbhəçilərdən, müsavatçılardan, "Realçı"lardan, "Milli Şuraçı"lardan danışsa və nəyə görə özüqarışıq həmrəylik kapmaniyasında iştirak etməmələri barədə danışsa daha yaxşı olar.

*Rövşən RƏSULOV*

# Müxalifət niyə koronavirusla mübarizədə kənarda qalır?

*Teyyub Qənioğlu: "Radikal müxalifət heç olmasa Koronavirusla Mübarizəyə Dəstək Fonduna 1 manat köçürə bilərdi"*



Müxalifətin dağıdıcı qanadı hər zaman ümumxalq maraqlara zidd mövqedən çıxış edib. Dünyada koronavirus epidemiyası yayıldıqdan sonra Azərbaycanda bu virusa qarşı sərt tədbirlər görülməyə başlanıldı. Müxtəlif dəstək kampaniyaları ilə yanaşı Koronavirusla Mübarizəyə Dəstək Fondu da yaradıldı ki, bununla da başlıca məqsədi ictimai həmrəyliyə nail olmaq oldu. Qısa zamanda fonda 110 milyon manata yaxın vəsait köçürüldü. Cəmiyyətin bütün təbəqələri bu kampaniyada fəal iştirak etdiyi halda müxalifət yenə də, fərqli yanaşma nümayiş etdirdi. Halbuki, dil qəhrəmanı olan müxaliflər sosial şəbəkələrdə hər zaman milli dəyərlərdən, insan hüquqlarına hörmətdən danışırlar. Hazırkı ağır və çətin məqamda müxalifət baş bilənlərinin milli birlikdən, həmrəylikdən kənarda qalması ilə sadəcə danışdıqlarının söz yığınağından başqa bir şey olmadığını nümayiş etdirirlər. Təkamül partiyasının sədri Teyyub Qənioğlu "Səs" qəzetinə açıqlamasında bildirdi ki, Koronavirusla Mübarizəyə Dəstək Fonduna imkan daxilində hər bir vətəndaşın yardım etməsi yaxşı hal olardı: "Sevindirici haldır ki, Koronavirusla Mübarizəyə Dəstək Fonduna yardım edən insanların sayı kifayət qədər çoxdur. Radikal müxalifət partiyalarını təmsil edən partiya sədrləri kifayət qədər maliyyə imkanlarına malikdirlər yəni heç olmasa deyək ki, partiya sədri kimi Koronavirusla Mübarizəyə Dəstək Fonduna pul keçirmək olardı. Yəni böyük dəyərlərdən, həmrəylikdən, insanlara yardım etməyin vacibliyindən danışanlar özləri də bu istiqamətdə addımlar atsınlar. Ancaq reallıq ondan ibarətdir ki, radikal müxalifət heç bir addım atmayıb, nümunə göstərməyib. Bunun fonunda görülən işlərə kölgə salmaq təbii ki, yaxşı hal deyil. Düşünürəm ki, Koronavirusla Mübarizəyə Dəstək Fonduna müxalifət maddi yardım göstərməyib, amma sosial şəbəkələrdə anormal çıxışlar etməsi yanlış bir haldır. Yəni radikal müxalifət partiyaları heç olmasa Koronavirusla Mübarizəyə Dəstək Fonduna 1 manat köçürə bilərdilər".

T.Qənioğlu onu da bildirdi ki, radikal müxalifət düşərgəsini təmsil edən partiya sədrlərinin koronavirus epidemiyasının yayılmasından sonra Azərbaycan cəmiyyətini və ictimaiyyətini təhdid edən və şər-böhtanlarını genişləndirən açıqlamalarla çıxış etməsi onların müəyyən sifarişlər yerinə yetirdikləri anlamı yaradır. Bu ağır və çətin bir gündə ictimai maraqlara qarşı bu dərəcədə düşmən mövqe sərgiləmək siyasətçiyə baş ucalığı gətirməyəcək. Ümumiyyətlə, bu cür insanlara fürsətçilər deyirlər. Yəni onların bundan öz maraqları üçün istifadə edərək məkrli niyyətlərini həyata keçirməyə çalışmaları düzgün hal deyil. Bir sözlə, dövlət bu virusla əlaqədar olaraq, vətəndaşlara kifayət qədər yardım göstərir. Hər bir vətəndaş da dövlətin yanında olmalı və dövlətə kömək etməlidir".

*GÜLYANƏ*

# DİN: "8103" qısa nömrəsinə 90 dəfə SMS göndərən ata və azyaşlı oğlu müəyyən edilib



***Qısa müddətdə yaradılan "Xüsusi Karantin Rejiminin Tətbiqi Zamanı İcazələrin Alınması və Monitorinqi Sistemi" vasitəsi olan 8103 qısa nömrəsinə ayrı-ayrı vətəndaşlar tərəfindən bəzi hallarda lüzumsuz smslər göndərilir. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu halların qarşısının alınması üçün daxili işlər orqanları tərəfindən mübarizə tədbirləri davam etdirilir.***

Belə ki, daxil olmuş sonuncu müraciətdə mobil operatorlardan birinin abonəçisinin 8103 nömrəsinə icazə almaq üçün 90-na yaxın SMS göndərdiyi barədə məlumat verilib. Həmin abonentin şəxsiyyəti dəqiqləşdirilən zaman onun Nərimanov rayonunda müvəqqəti məskunlaşan Ağdam sakini İlham Bəhramanov olduğu müəyyən edilib. Həmin şəxs Nərimanov Rayon Polis İdarəsinin 18-ci Polis Şöbəsinin əməkdaşları tərəfindən saxlanılıb. İ.Bəhramov ifadəsində 8103 xidmətinə ona məxsus mobil telefondan xəbəri olmadan azyaşlı oğlu 5-ci sinif şagirdi U.Bəhramlı tərəfindən SMS-lər göndərildiyini bildirib. Məsuliyyətsiz davrandığına və xüsusi karantin rejimi qaydalarını pozduğuna görə Nərimanov Rayon Polis İdarəsinin 18-ci Polis Şöbəsində İlham Bəhramanov barəsində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 211-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsi ilə tədbir görülüb və o, cərimə edilib.

# Mağazadan oğurluq etmək istəyən şəxs saxlanıldı



Siyəzəndə mağazadan oğurluq olub. Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində rayon ərazisindəki mağazaların birindən 360 manat və tütün məmulatı oğurlamaqda şübhəli bilinən şəhər sakini E.Zeynalov saxlanılıb. Araşdırma aparılır.

# Cibgirlik edən şəxs tutuldu



Bakı şəhər sakini S.Əsgərzadənin pulqabısını cibindən oğurlamaqda şübhəli bilinən R.Şikarov saxlanılıb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Binəqədi RPİ 5-ci PB əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində Bakı şəhər sakini S.Əsgərzadənin içərisində 965 manat, şəxsiyyət vəsiqəsi və bankomat kartları olan pulqabısını cibindən oğurlamaqda şübhəli bilinən Qobustan rayon sakini R.Şikarov saxlanılıb.

# "İş adamlarına, fərdi sahibkarlara lazım olan vəsaitlərin ayrılması istiqamətində işlər görüləcək"

***Koronavirus pandemiyası dünya iqtisadiyyatına, sosial duruma, əhaliyə çox ciddi problemlər yaradır. Belə vəziyyətdə makroiqtisadi və maliyyə sabitliyinin saxlanılması, məşğulluğun təmin edilməsi olduqca böyük əhəmiyyət kəsb edir.***

AZƏRTAC xəbər verir ki, bu sözləri İqtisadiyyat nazirinin müavini Niyazi Səfərov Sumqayıt Kimya Sənaye Parkının ərazisində fəaliyyətə başlayan "Bakı Tekstil Fabriki" MMC-də infoturda iştirak edən jurnalistlərə açıqlamasında bildirib. Nazir müavininin sözlərinə görə, dövlət başçısının tapşırığına uyğun olaraq, İqtisadiyyat Nazirliyində bir çox iqtisadi fəaliyyət sahələri üzrə, xüsusilə koronavirus pandemiyası ilə bağlı ciddi təsirə məruz qalmış iqtisadi fəaliyyət sahələri və onları təmsil edən sahibkarlarla görüşlər keçirilib. Onların arzu və təklifləri dinlənilib və bununla əlaqədar dörd İşçi qrupu yaradılıb.

Tələbələrin, digər vətəndaşların iqtisadi vəziyyətinin yaxşılaşdırılması istiqamətində, ümumiyyətlə, iqtisadi subyektlərə dəstək göstərilməsi üçün Prezidentin tapşırığı əsasında 1 milyard manat vəsaitin ayrıldığını deyən N.Səfərov qeyd edib ki, əlavə imkanlar hesabına bu vəsaitin 2,5 milyard manata qədər artırılması gözlənilir. Bununla yanaşı, nazir müavini bildirib ki, dəstək və yardım göstəriləcək iş adamlarının, eyni zamanda, fərdi sahibkarların sayı 600 min təşkil edir. "Onlara lazım olan vəsaitlərin ayrılması istiqamətində işlər görüləcək", - deyə Niyazi Səfərov əlavə edib.

Qəzet 1991-ci il
yanvarın 11-dən çıxır

# Səs

Son səhifə

8 aprel



## Həkimdən xəbərdarlıq: Ət yeməkdən tam imtina etmək düzgün deyil!

***Son dövrlərdə ət və ya ət məhsullarından könüllü olaraq imtina edənlərin də sayı artıb. Hazırda vegetarian və ya veqan olmaq bir növ dəbə minib. Vegetarian dedikdə ət məhsullarından imtina edib öz rasionunda bitki mənşəli qidalara üstünlük verənlər nəzərdə tutulur.***

AZƏRTAC xəbər verir ki, Azərbaycan Tibb Universitetinin qidalanma və kommunal gigiyena kafedrasının müdiri İbrahim Əhmədovun dediyinə görə, vegetarianlıq inkişaf edən orqanizm üçün, daha dəqiq desək, uşaqlar və gənclər üçün əlverişli deyil: "Çünki onlarda böyümə və inkişaf, bədənin formalaşması prosesi gedir. Müəyyən patologiyalar zamanı ondan tam imtinadan yox, bəzi qidaların məhdudlaşdırılmasından, pəhriz qidalanmasından istifadə etmək daha düzgündür. Əgər kiminsə ateresklerozu, yaxud arterial hipertoniyası varsa, onun ət və ət məmulatlarından çox istifadə etməsi düzgün deyil. Ət yeyilməsi vacibdir, çünki onun orqanizmin immunitetinin formalaşmasında, parçalanan, məhv olan hüceyrələrin yerini doldurmaqda onun böyük əhəmiyyəti var. Ət və ət məmulatlarından birdəfəlik imtina etmək düzgün deyil, çünki onun tərkibində olan maddələr bitki mənşəli məhsullarda yoxdur və ya çox cüzidir. Xüsusilə onların tərkibində olan amin turşuları orqanizmi zülallarla təmin edir". Lakin bununla birlikdə qidalanma zamanı meyvə, tərəvəz və ağartı məhsullarından istifadə etmək tövsiyə olunur.

## Dünyanın ən varlı 100 insanı Koronavirusa görə 408 milyard dollar itirdi!




Dünyanın ən varlı 100 insanının sərvəti COVID-19 pandemiyası fonunda cəmi iki ayda ümumilikdə 408 milyard dollar azalıb. Bu, hər gün 75 milyon dollar itki deməkdir. Bu barədə Şanxayın Hurun institutu məlumat yayıb. Məlumata görə, ən çox itkiyə LVMH Moet Hennessy Louis Vuitton korporasiyasının səhmlərinin 47 faizini əlində cəmləşdirmiş fransız milyarder Bernar Arno məruz qalıb - 30 milyard dollar. Onun sərvəti yanvarın sonundakı 107 milyard dollardan 77 milyard dollara enib. Amazon şirkətinin baş icraçı direktoru Cef Bezos həmin müddətdə 9 milyard dollar itirsə də, 131 milyard dollarlıq sərvəti ilə dünyanın ən varlı şəxsi olaraq qalır.

Bununla eyni vaxtda, Zoom videokonfrans platformasının yaradıcısı Yuan Cjen öz varidatını artıraraq 3,5 milyard dollardan 8 milyard dollara çatdırıb. Zoom səhmlərinin qiyməti iki ayda iki dəfəyə yaxın bahalaşaraq 76 dollardan 146 dollara yüksəlib. Hurun İnstitunun yanvar məruzəsinə əsasən, dünyada 2816 nəfər dollar milyarderi vardı. Son iki ayda onların sayı 20 faiz azalaraq 2253-ə enib.

## İbrahim Tatlısəsin qızı koronavirusa yoluxdu

***Türkiyənin tanınmış sənətçisi İbrahim Tatlısəsin müğənni qızı Dilan Çıtak Tatlısəs koronavirusa yoluxub. Oxu.Az xəbər verir ki, "Instagram" hesabından canlı yayımda D.Tatlısəs deyib ki, oynaq ağrıları, dadbilmə və hissiyyatın itməsinə görə verdiyim COVID-19 testinin nəticələri pozitiv çıxdı.***



Uzun zaman birlikdə yaşadığı sevgilisi Levent Dörtlerin koronavirusa yoluxmasından sonra "Instagram"da canlı yayıma çıxan müğənni halsızlıq hiss etdiyini, dərman qəbul etdiyini, tərlədiyini, nəfəs alarkən çətinlik çəkdiyini və xəstəliyə yoluxmaqdan qorxduğunu bildirmişdi.

## "AS" nəşri: Ronaldo "Real"a qayıtmayacaq



"Real" rəhbərliyi "Yuventus"un futbolçusu Kriştiano Ronaldonu komandaya geri qaytarmaq fikrində deyil. Bu barədə "AS" nəşri məlumat yayıb. Bildirilib ki, 35 yaşlı hücumçunun qayıdışı Madrid klubunun transfer siyasətinə uyğun deyil. Çünki rəhbərlik daha gənc futbolçulardan ibarət komanda qurmağı planlaşdırır.

Qeyd edək ki, Ronaldo bu mövsüm 32 matçda 25 qol vurub, 4 qolun ötürməsini verib. Xatırladaq ki, İtaliya mətbuatı portuqaliyalı oyunçunun "Real"a qayıtmaq istədiyini yazmışdı.

## Elm adamları şokda: Koronavirus hüceyrədə gizlənir

Cənubi Koreyada koronavirusdan sağalmış51 nəfərin hüceyrələrində virus aşkarlanıb. Bununla bağlı Sondakika.com həmin ölkənin "Yonhap" xəbər agentliyinə istinadən məlumat yayıb. Bildirilir ki, Cənubi Koreyanın Xəstəliyə Nəzarət və Qarşısının Alınması mərkəzinin Baş katibi Yunq Eun-Kyeonq həmin 51 nəfərin yenidən koronavirusa yoluxmadığını, eyni zamanda, virusun onların hüceyrələrində gizlənib qaldığını açıqlayıb. Səhiyyə mütəxəssisləri ölümcül virusun hüceyrələrdə gizlənərək yenidən aktivləşə biləcəyini qeyd ediblər. Qeyd edək ki, Cənubi Koreyada 10 331 nəfər koronavirusa yoluxub, 192 nəfər isə ölüb.

## Türkiyədə ana yatan uşağını boğub öldürdü

Türkiyənin Denizli şəhərində qadın dörd yaşlı oğlunu boğaraq öldürüb. "HaberGlobal" məlumat verir ki, 35 yaşlı Nagihan K. bacısı ilə telefonla danışan zaman hadisəni etiraf edib. İddiaya görə, qadın gecə otağında yatan azyaşlı övladını boğaraq öldürüb. Bundan sonra ağlayaraq, eyni binada yaşayan bacısına zəng edib və ondan kömək istəyib. Qadının bacısı təcili yardım çağırsa da, artıq gec olub. Uşağın meyiti araşdırılma üçün morqa aparılıb. Nagihan K. saxlanılıb. Araşdırmalar davam edir.



## İki güləşçimiz Olimpiya reytinq siyahısında ilk onluqda!



Dünya Güləş Birliyi sərbəst güləşçilərin yeni Olimpiya reytinq siyahısını açıqlayıb. Belə ki, reytinq siyahısının ilk onluğunda iki güləşçimiz yer alıb. Belə ki, Olimpiya çempionu Şərif Şərifov (97 kq) 40 xalla üçüncü pillədə qərarlaşıb. Cəmaləddin Məhəmmədov (125 kq) isə 34 xalla dördüncü pillənin sahibidir. Qeyd edək ki, koronavirus pandemiyasına görə təxirə salınan "Tokio-2020" Yay Olimpiya Oyunlarına sərbəst güləşçilərimizdən yalnız Ş.Şərifov lisenziya qazanıb.

*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600